Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

16 OKTYABR 2019-cu il

№ 184 (4082)

Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır

Qəzet 2003-cü ildən nəşr olunur

# ABŞ-TÜRKİYƏ MÜNASİBƏTLƏRİ NATO-nu DAĞITMAQ HƏDDİNDƏ, TÜRK NAZİRLƏRƏ DÜŞMƏN MÜNASİBƏT - SANKSİYA...

▪ səh. 5 ▪

Bir millətin həqiqətən iki mətbuatı olmaz - Əli Həsənov medialararası inteqrasiyada yeni müzakirə tezisi açdı...

▪ səh. 2 ▪

Ermənistanın mövqeyi Qarabağda antiterror əməliyyatlarını qaçılmaz edir - Bakıda Türk Zirvəsindən sonra təcavüzkarın narahatlıqları artır...

▪ səh. 9 ▪

Ermənistan 500 nəfərlik batalyonla Suriyanın şimalında anti-Türkiyə müharibəsinə qoşuldu - Azərbaycan ərazilərinə Suriyadan ermənilərin yeni köçünə start verilir...

▪ səh. 10 ▪

Ermənilərdən ibarət Ozanyan batalyonu Suriyada Türkiyəyə qarşı mübarizəyə çağırış etdi...

▪ səh. 4 ▪

Paşinyanın həyat yoldaşı pul yığmaq üçün indi də Cenevrədə marafonlara çıxıb

▪ səh. 6 ▪

Azərbaycanda siyahıyaalmanın daha təkmil nəticələnməsi üçün zəruri dəyişiklik qərarı verildi

▪ səh. 11 ▪

Saxta əlillik alanlar arasında 18 yaşa çatmayanlar üstünlük təşkil edir - niyə...

▪ səh. 11 ▪

Şou müğənnilər indi də bir-birinə uşaq doğub bağışlamaq söhbətlərinə başlayıblar...

▪ səh. 14 ▪




▪ səh. 8 ▪

## Bakı müasir dünya düzəni üçün inqilabi hadisəyə evsahibliyi etdi - Türk Dövlətləri Təşkilatı yaradıldı

Türkmənistan sonuncu türk dövləti kimi təşkilata dəvət aldı...



Münaqişənin mahiyyətini təhrif etməyə yönəlik Ermənistanın daha bir cəhdi - «Azərbaycan ermənilərsiz Qarabağ istəyir»?...

▪ səh. 3 ▪

Şuşada İran-erməni elm-mədəniyyət mərkəzi? - Açılışda İrandan kimsə iştirak etmədi...

▪ səh. 6 ▪



Azərbaycan vətəndaşlığından çıxmadan Rusiya vətəndaşlığı almaq mümkün olacaq

▪ səh. 7 ▪

▪ səh. 4 ▪

Faşist Njdenin heykəli məsələsi MDB-nin sammit sənədlərində yer alıb?



▪ səh. 3 ▪

Türkdilli dövlətlərin daha da sıxlaşmasının Qarabağ prosesinə təsir perspektivləri...



▪ səh. 12 ▪

Övladlığa götürmə müraciətləri DOST mərkəzlərinə verildi - əyriliklərin yolu nə qədər bağlanır...



▪ səh. 13 ▪

Banklar müştərilərin evli-subaylığından əlavə, boşanmış-dul olması ilə də maraqlanmağa başlayıblar...



▪ səh. 14 ▪

"Nutrilak" uşaq qidasından nə çıxdı?



# Bir millətin həqiqətən iki mətbuatı olmaz - Əli Həsənov medialararası inteqrasiyada yeni müzakirə tezisi açdı...

**Prezidentin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Qlobal medianın inkişaf trendləri: Risqlər və İmkanlar" Bakı Beynəlxalq Media Konfransında çıxış edib. O qeyd edib ki, Azərbaycanla Türkiyə arasında əlaqələrin təməli sağlam qoyulub:**



"Ulu öndər Atatürk tərəfindən zamanında bəyan olunan "Türkiyə və Azərbaycanın sevinci də, kədəri də birdir" və Ümummilli lider Heydər Əliyev tərəfindən səsləndirilən "bir millət, iki dövlət" formulası bu gün bizim bütün sahələr üzrə birliyimizə xidmət göstərir. Tək millətin iki mətbuatı ola bilməz, tək millətin iki diasporu ola bilməz. Biz həm mətbuatımızı, həm diasporumuzu birləşdirməliyik və beynəlxalq aləmdə bizə tuşlanan güclərə qarşı birgə müqavimət göstərməkdə davam etməliyik".

Göründüyü kimi, Əli Həsənov media sahəsində əməkdaşlığın daha genişlənməsi istiqamətində yeni tezis ortaya qoyub və bəyan edib ki, bir millətin iki mətbuatı ola bilməz. Bu tezisin inkişaf etditilməsinin nə kimi faydaları olar?

***Azər Həsrət:** "Bunun, həmçinin, ölkələrimiz arasındakı ünsiyyətin dərinləşməsinə də böyük faydası olacaq"*

Media məsələləri üzrə ekspert Azər Həsrət "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bizim ölkə olaraq Türk dünyasının birliyində oynadığımız rol çox mühümdür: "Azərbaycan bu inteqrasiyada lokomativ rolunu oynayır. Bu yalnız hazırda belə deyil. 100 il əvvəl də Azərbaycan türkləri Türk dünyasının birliyi, bərabərliyi üçün dərindən çalışıblar. Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə kimi böyük şəxsiyyətlərimiz bu yolda əllərindən gələni ediblər. Sevindiricidir ki, müasir Azərbaycan dövləti də bu missiyanı layiqincə yerinə yetirir. Dünyanın hər yerindən olan türklər gəlib Bakıda tez-tez görüşə bilir. Biz bu yöndə olan mühüm tədbirlərə daim evsahibliyi edirik. Bakıdakı mətbuat yarandığının ilk illərində Türk dünyasının hər yerinə ayrıca diqqət yetirib. Bu baxımdan da hörmətli Əli Həsənovun söylədiyi bu fikir yeni deyil. Bunun dərin kökləri var. Bilirsiniz ki, Azərbaycan Respublikası Xalq Cümhuriyyətinin rəsmən varisidir. Biz həmin dəyərlərin daşıyıcısıyıq, onlara söykənən bir dövlətik. Bugünkü Azərbaycan hakimiyyəti də o varisliyə böyük dəyər verir. Bu səbəbdən də Əli müəllim həm diaspor, həm də mətbuatın vahidliyi ilə bağlı bu fikirləri təsadüfən səsləndirmədi. Bir daha sübut olunur ki, Azərbaycan özünü layiqli varis kimi aparır. İllər öncə deyilən tezislərin də həyata keçirilməsində maraqlı olduğunu ifadə edir. Türk dünyasının, bütövlükdə, mediasının birliyi bizim üçün çox gərəklidir. Xüsusən də Azərbaycanın ən ümdə problemlərinin dünyaya çatdırılması baxımından bu olduqca vacibdir. Bunun, həmçinin, ölkələrimiz arasındakı ünsiyyətin dərinləşməsinə də böyük faydası olacaq. Başqa bir xeyri isə düşmənə qarşı mübarizədə vahid mövqeni ortaya qoya biləcəyimizlə bağlıdır. Çünki, prinsip etibarilə, bizim dostumuz da, düşmənimiz də eynidir".

*"Başqa bir xeyri isə düşmənə qarşı mübarizədə vahid mövqeni ortaya qoya biləcəyimizlə bağlıdır"*

***Məhəmmədli QƏRİBLİ***

## DİN Baş Mütəşəkkil ... İdarəsinin daha bir uğurlu əməliyyatı və saxta spirtli içkilər hazırlayan "Beluqa Tahir"in mütəşəkkil dəstəsi...

**Daxili İşlər Nazirliyi Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin əməkdaşları Qida Təhlükəsizliyi Agentliyinin mütəxəssisləri ilə birgə gizli sexlərdə saxta spirtli içkilər hazırlayaraq satış şəbəkəsi quran mütəşəkkil cinayətkar dəstəyə qarşı xüsusi əməliyyat tədbiri keçirib.**

Tədbir nəticəsində müəyyən olunub ki, "Beluqa Tahir" ləqəbi ilə tanınan Tahir Həziyevin başçılıq etdiyi mütəşəkkil cinayətkar dəstə bir müddətdir ki, Bakı şəhərində müxtəlif ünvanlarda yerləşən gizli sexlərdə Rusiya istehsal olan "Beluqa","Stoliçnaya", "Nemiroff", "Russkiy Standard" araqlarının, "Jack Daniels", "Chivas" viskilərinin, "Omega", "Patron" tekilalarının və sair spirtli içkilərin saxtalarını hazırlayaraq üzərinə saxta aksiz markalar vurmaqla müxtəlif iaşə obyektlərində və şərab evlərində satışını təşkil edir.

Abşeron rayonunun Novxanı qəsəbəsində yerləşən Tahir Həziyevə məxsus gizli sexə, dəstə üzvləri Elşən Səfərova məxsus Sabunçu rayonunun Buzovna qəsəbəsində və qardaşı Elnur Səfərova məxsus Binəqədi rayonu Rəsulzadə qəsəbəsində yerləşən anbarlara, Əliağa Əhmədova məxsus Nərimanov rayonunda yerləşən gizli saxlanc yerinə, eləcə də Afəddin Yunisova məxsus spirtli içkilərin topdansatış mərkəzinə baxış keçirilən zaman satış üçün hazırlanmış ümumilikdə 6114 ədəd saxta spirtli içki, mənşəyi məlum olmayan 1 tona yaxın spirt, 100.000 ədəddən çox saxta aksiz markası, saxta spirtli içkilər üçün nəzərdə tutulan 31200 ədəd müxtəlif əmtəə nişanlı etiket və saxta spirtli içkilərin hazırlanması üçün kustar üsulla düzəldilən xüsusi elektron avadanlıqlar aşkar olunaraq götürülüb.

Qeyd edək ki, dəstə üzvləri külli miqdarda gəlir əldə etmək üçün əsli satış bazarında baha qiymətə olan spirtli içkilərin saxta nümunələrini hazırlayıblar.

Araşdırma zamanı mütəşəkkil şəbəkənin üzvləri tərəfindən hazırlanan saxta içkilərin toy mərasimlərində istifadə edilməsi üçün bəzi şadlıq evlərinə satıldığı da müəyyən edilib. Həmin şadlıq evləri sahiblərinin də müəyyən edilərək məsuliyyətə cəlb edilməsi istiqamətində tədbirlər davam etdirilir.

Aşkar edilən saxta spirtli içkilərdən götürülən nümunələr ekspertizaya təqdim edilib və əldə olunan rəyə əsasən bu məhsulların toksikoloji normalara cavab vermədiyi, qeyd olunan içkilərin istehlakının insan orqanizmi üçün ciddi təhlükə mənbəyiolduğu müəyyən edilib.

Saxta və insan sağlamlığı üçün təhlükəli olan spirtli içkiləri hazırlayan dəstə üzvləri barəsində Baş İdarədə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanıb.

Bu cinayətkar şəbəkə ilə əlbir olan, şəxsiyyəti hələ ki, müəyyən edilməyən digər şəxslərin də saxlanaraq istintaqa cəlb edilməsi istiqamətində əməliyyat-axtarış tədbirlər davam etdirilir.

# ABŞ Türkiyəyə sanksiya tətbiq etdi, ardınca Türk ordusunun hədəfində olan Münbiçi Rusiya və Əsəd rejiminə verib əsgərlərini geri çəkdi

**Türkiyə Silahlı Qüvvələri tərəfindən Fərat çayının şərqini terror təşkilatlarından təmizləmək məqsədilə oktyabrın 9-dan başladılan "Barış Pınarı" (Sülh bulağı) əməliyyatı davam edir.**

Baki-xeber.com xəbər verir ki, Türkiyə ordusu və Suriya Milli Ordusu Tel Abyad və Rəsulaynı tam nəzarət altına aldıqdan sonra Menbiçə doğru irəliləməyə başlayıb.

Bu barədə hələlik rəsmi məlumat açıqlanmasa da, Türkiyə mediasında Menbiçi ələ keçirmək üçün əməliyyatın başladığı bildirilir. Suriya Milli Ordusu da əməliyyatın başladığını təsdiqləyib.

Bundan bir gün sonra isə ABŞ-ın rəhbərlik etdiyi koalisiya Amerika qüvvələrinin Türkiyənin hədəfində olan Münbiçdən tam çıxdığını açıqlayıb. Koalisiya bu barədə məlumatı "Twitter" hesabında yayıb.

"Koalisiya qüvvələri Suriyanın şimal-şərqindən geri çəkilir. Biz Münbiçdən kənardayıq" - açıqlamada deyilir.

Rusiya Müdafiə Nazirliyi də ABŞ-ın Münbiçdən çəkildiyini və rus muzdluları və Əsəd qüvvələrinin şəhərə girdiyini açıqlayıb. Şəhərdə Rusiya əsgərlərinin görüntüləri də yayılıb, binalarda Rusiya və Suriya bayraqları asılıb.



Bundan əvvəl isə ABŞ Prezidenti Türkiyəyə qarşı sanksiyalar tətbiq edib. ABŞ Türkiyənin Suriyada həyata keçirdiyi "Barış bulağı" əməliyyatını hədəf alaraq 3 nazir və 2 nazirliyi sanksiya siyahısına aldığını açıqlayıb.

ABŞ Dövlət katibi Mayk Pompeonun sözlərinə görə, sənəd Ankaraya təzyiq göstərərək Türkiyəni Suriyada həyata keçirdiyi əməliyyatı dayandırmağa məcbur etmək üçün nəzərdə tutulub.

Dövlət katibinin yazılı bəyanatında deyilir ki, sanksiya çərçivəsində tətbiq olunmuş məhdudiyyətlər fəaliyyəti ilə regionda "mülki vətəndaşlar üçün təhlükə yaradan və ya sülhü, təhlükəsizliyi və sabitliyi sarsıdan" şəxsləri və təşkilatları əhatə edə bilər.

ABŞ Maliyyə Nazirliyi bildirib ki, sanksiya siyahısına artıq Türkiyənin müdafiə naziri Hulusi Akar, energetika naziri Fatih Donmez və daxili işlər naziri Süleyman Soylu düşüblər. Açıqlamada Türkiyənin müdafiə və energetika nazirliklərinin də sanksiya siyahısına salındığı bildirilib.

**Bundan başqa, bir müddət öncə xəbər verilib ki, Vaşinqton Türkiyə istehsalı olan polad üçün tarifləri 50 faizədək artırmaq niyyətindədir. Birləşmiş Ştatlar, həmçinin, Ankara ilə 100 milyard dollar dəyərində razılaşma ilə bağlı danışıqları dayandıracaq.**

## "Kuhner Fondu" üzvlərinin adı Azərbaycan XİN-in "qara siyahı"sından çıxarıldı

**İsveçrə Konfederasiyasında fəaliyyət göstərən "Kuhner Fondu" Azərbaycanın Xarici İşlər Nazirliyinə (XİN) məktubla müraciət edərək, bu fondun rəhbəri Laura Kuhner, eləcə də onun üzvlərinin Tim Bürgin və Qifti Dvamena adlarının "Azərbaycan Respublikasının işğal edilmiş ərazilərinə qanunsuz səfər etmiş xarici ölkə vətəndaşlarının Siyahısı"ndan çıxarılmasını xahiş edib.**

XİN-dən baki-xeber.com-a verilən məlumata görə, məktubda "Kuhner Fondu" Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi, eləcə də ölkəmizin qanunlarına hörmət etdiyini bəyan edib. Həmçinin, müraciətdə Fondun üzvlərinin etdikləri səfərin törədə biləcəyi nəticələr barədə məlumatsız olduqları qeyd edilir.

"Kuhner Fondu"nun müraciəti müvafiq qaydada nəzərdən keçirilib və bu Fondun üzvlərinin adlarının arzuolunmaz şəxslər siyahısından çıxarılmasına dair qərar qəbul edilib.

# Münaqişənin mahiyyətini təhrif etməyə yönəlik Ermənistanın daha bir cəhdi - "Azərbaycan ermənilərsiz Qarabağ istəyir"?...

**Ermənistan zaman-zaman Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi ilə bağlı səslənən fikirləri təhrif edir. Bu yöndə, fürsət düşən kimi, qarşı tərəf bununla bağlı cəhdlər edir. Bu günlərdə Prezident İlham Əliyev Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park-2" yaşayış kompleksinin açılışında iştirak edərkən Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı bir sıra məqamlara toxunub.**



## *Mübariz Əhmədoğlu: "Məqsəd, nəyin bahasına olursa-olsun, münaqişənin mahiyyətini təhrif etmək və problemin həllini yubatmaqdır"*

O cümlədən, ölkə başçısı işğaldan azad edilən ərazilərin bərpasından danışıb: "Əsas məsələ bu gün hələ də işğal altında olan torpaqlar azad ediləndən sonra orada yeni binaların, kəndlərin, şəhərlərin salınmasıdır. Bunu da biz edəcəyik, necə ki, vaxtilə işğal altında olmuş Dağlıq Qarabağ Muxtar Vilayətinin inzibati ərazisində yerləşən Şıxarx qəsəbəsində bu gün gözəl bir şəhərcik salınıb. Orada da 1000-dən çox ailə məskunlaşıb".

Azərbaycan dövlət başçısının səsləndirdiyi bu fikirləri əlində bayraq edən Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Nağdalyan iddia edir ki, guya Azərbaycan Qarabağda ermənilərin varlığını istəmir, ermənilərsiz Dağlıq Qarabağı bərpa etmək istəyir. Daha sonra A.Nağdalyan həyasızcasına bunları deyib: "Münaqişənin həllinin Marağa (Şıxarx) versiyasının təşviqi Azərbaycan rəhbərliyinin xalqları sülhə deyil, digər xalqlara qarşı zorakılığa hazırlamaqla bağlı həqiqi niyyətini ortaya qoyur".

Halbuki, Azərbaycan dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ işğaldan azad ediləndən sonra Azərbaycan və erməni icmalarının birgə yaşayışı təmin ediləcək. Çünki Dağlıq Qarabağda yaşayan etnik ermənilər Azərbaycan vətəndaşıdırlar. Görünən odur ki, ilk dəfə deyil Ermənistan rəhbərliyi Qarabağ münaqişəsinin mahiyyətini təhrif edən açıqlamalar verir. Bundan bir müddət əvvəl Ermənistanın Baş naziri Nikol Paşinyan BMT-də çıxışında bəyan etdi ki, guya Dağlıq Qarabağ münaqişəsi ərazi mübahisəsi deyil: "Azərbaycan hökuməti Qarabağ münaqişəsini Ermənistanla Azərbaycan arasındakı ərazi mübahisəsi kimi təqdim edir. Biz münaqişənin bu cür təfsiri ilə tamamilə razı deyilik. Bu, Ermənistanla Azərbaycan arasında mübahisə deyil. Bu mübahisə ərazi iddiaları ilə bağlı deyil".

Hansı ki, Azərbaycanla yanaşı, bütün dünya, o cümlədən, beynəlxalq təşkilatlar Qarabağ münaqişəsini ərazi mübahisəsi kimi qəbul edirlər. O cümlədən,

### *"Nağdalyanın səsləndirdiyi fikirlər cəfəngiyyatdır"*

ATƏT-in Minsk Qrupu məsələyə bu cür yanaşır. İndi də Ermənistan XİN rəsmisi A.Nağdalyan da "Azərbaycan ermənilərsiz Qarabağ istəyir" deməklə münaqişənin mahiyyətini təhrif etməklə bağlı uğursuz cəhd edir.

Məsələyə münasibət bildirən Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlunun sözlərinə görə, A.Nağdalyanın səsləndirdiyi fikirlər erməni riyakarlığının növbəti nümunəsidir: "Ermənistan tərəfi zaman-zaman Qarabağ münaqişəsinin mahiyyəti ilə bağlı təhrifedici məzmunlu məlumatlar yayıb. İstər əvvəlki hakimiyyətlərin dövründə, istərsə də indiki Paşinyan hakimiyyətinin vaxtında dəfələrlə bunun şahidi olmuşuq. Ümumiyyətlə, belə götürəndə ermənilər natamamlıq kompleksi olan bir millətdir. Ona görə də hərə öz prizmasından çalışır ki, Azərbaycana qarşı iftira atsın. Məqsəd, nəyin bahasına olursa-olsun, münaqişənin mahiyyətini təhrif etmək və problemin həllini yubatmaqdır. Azərbaycan Dağlıq Qarabağa aid olan ərazidə dağıdıcılıqla məşğul olmayıb, əksinə, həmin əraziləri abadlaşdırır, orada qəsəbə salır. İşğal altında olan digər ərazilər də azad ediləndən sonra bənzər işlər davam etdiriləcək. Azərbaycanın, Ermənistandan fərqli olaraq, bunu etmək üçün iqtisadi imkanları da böyükdür. A.Nağdalyanın məlum yanaşması həm də onu göstərir ki, işğalçı ölkə hakimiyyəti qurub-yaratmağı qəbul etmir. Onların işi ancaq dağıtmaqdır. Bununla yanaşı, Azərbaycan rəsmiləri heç vaxt bəyan etməyiblər ki, Dağlıq Qarabağda etnik ermənilər yaşaya bilməz. O baxımdan Nağdalyanın səsləndirdiyi fikirlər cəfəngiyyatdır. Deyilənlər Qarabağ münaqişəsinin mahiyyətini təhrif etmək və pozuculuq məqsədi daşıyır".

***Vidadi ORDAHALLI***

# Türkdilli dövlətlərin daha da sıxlaşmasının Qarabağ prosesinə təsir perspektivləri...

**Məlum olduğu kimi, oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə görüşü keçirilib. Görüşdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Qırğızıstan Prezidenti Sooronbay Jeenbekov, Macarıstanın Baş naziri Viktor Orban və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayev iştirak ediblər.**




## *Seyid Camal Əzimbəyli: "Türkdilli dövlətlər arasında inteqrasiyanın dərinləşməsi Qarabağ münaqişəsinin həlli perspektivini..."*

Prezident İlham Əliyev Zirvə görüşünü açaraq dövlət və hökumət başçılarını salamlayıb. Zirvə görüşündə iştirak edən dövlət başçıları və ölkə rəsmiləri çıxış ediblər.

Qeyd edək ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası türkdilli ölkələr arasında dialoq və əməkdaşlığı təşviq etmək üçün yaradılan beynəlxalq platformadır. Şura 2009-cu il oktyabrın 3-də Naxçıvanda keçirilən sammitdə yaradılıb. Onun fəaliyyət prinsipləri 16 sentyabr 2010-cu il tarixli İstanbul Bəyannaməsində əksini tapıb. İlk mərhələdə Türk Şurasına Türkiyə, Azərbaycan, Qazaxıstan və Qırğızıstan daxil olub. Bu il Özbəkistan da Türk Şurasına qoşulub.

Tədbirdə çıxış edən Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Qarabağ probleminin həlli üçün əlindən gələni edəcək. Onun fikrincə, birbirimizin yanında olmaq qardaşlığımızın tələbidir: "Azərbaycanın öz torpağı Dağlıq Qarabağ və ətrafının Ermənistanın işğalı altında olması 1 milyon qardaşımızı evlərindən, yurdlarından uzaqda qaçqın olaraq yaşamaq məcburiyyətində qoyub. BMT Baş Assambleyasındakı çıxışımda da vurğuladığım kimi, bu, qəbuledilməzdir. Dağlıq Qarabağ probleminin ən qısa zamanda sülh yolu və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həlli üçün əlimizdən gələni etməyə davam edəcəyik".

Bütün bu deyilənlərlə yanaşı, türkdilli ölkələr arasında əməkdaşlığın dərinləşməsi Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına necə perspektivlər aça bilər?

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, sözügedən ölkələr arasında çoxşaxəli inteqrasiyanın yaranması

### *"İdeoloji baxımdan sözügedən zirvə görüşləri bu yöndə faydalı ola bilər"*

müəyyən qədər Qarabağ münaqişəsinin həllinə müsbət təsir göstərə bilər: "Çünki türkdilli ölkələrin nüfuzu get-gedə artır. Belə bir möhtəşəm tədbirə Azərbaycanın evsahibliyi etməsi mühüm hadisədir. Sevindirici haldır ki, əhalisinə görə böyük türkdilli dövlətlərdən olan Özbəkistan da bu prosesə qoşulub. Qeyd edim ki, Özbəkistan neçə ildir bu cür toplantılara qoşulmurdu. Nəzərə almaq lazımdır ki, Özbəkistan Prezidenti çıxışında "Qarabağ məsələsinin həlli mühümdür" fikrini səsləndirdi. Onun belə bir mesaj verməsi hesab edirəm ki, inkişaf etdirilməlidir. Bu da türkdilli ölkələrin inteqrasiyası timsalında ola bilər. Bu inteqrasiya imkan verəcək ki, Qarabağ həqiqətləri sözügedən ölkələrdə geniş yayılsın. Açıq etiraf etməliyik ki, Qarabağ həqiqətləri ilə bağlı türkdilli ölkələrdə görüləsi işlər çoxdur. Bu dövlətlərdə yaşayan əhali Qarabağ müsibətindən, orada yaşanan faciələrdən tam məlumatlı deyil. İdeoloji baxımdan sözügedən zirvə görüşləri bu yöndə faydalı ola bilər. Həm Qarabağ həqiqətlərinin tanıdılmasına, həm də münaqişənin həlli perspektivinə müsbət yol aça bilər. Nəzərə almaq lazımdır ki, Türkiyədən sonra Qazaxıstan da Qarabağ münaqişəsinin həllinə müəyyən səy göstərir. Türkdilli dövlətlər dünyada hərbi və iqtisadi birliklərdə təmsil olunurlar. Dünyanın enerji təchizatında, tranzit daşımalarda müəyyən rola malikdirlər. Hesab edirəm ki, türkdilli dövlətlər arasında inteqrasiyanın dərinləşməsi Qarabağ münaqişəsinin həlli perspektivini müəyyən qədər yaxınlaşdırır".

***Vidadi ORDAHALLI***

# Faşist Njdenin heykəli məsələsi MDB-nin sammit sənədlərində yer alıb?

**Məlum olduğu kimi, bu günlərdə Türkmənistanın paytaxtında MDB Dövlət Başçıları Şurasının məhdud tərkibdə iclası keçirilib. İclasda Prezident İlham Əliyev də iştirak edib. İclasın gündəliyindəki məsələlərdən biri Böyük Vətən Müharibəsində qələbənin 75 illiyi ilə əlaqədar dövlət başçılarının Birlik ölkələrinin xalqlarına və dünya ictimaiyyətinə müraciəti ilə bağlı olub.**



***Vüqar Rəhimzadə:** ”Belə bir müddəanın olması Njdenin İrəvandakı heykəlinin sökülməsinə gətirib çıxara bilər”*

Bu məsələnin müzakirəsi zamanı çox maraqlı hadisə baş verib. Prezident İlham Əliyev faşistlərin qəhrəman kimi qələmə verilməsinin qəbuledilməz olduğunu xatırladıb. Bu kontekstdə Ermənistanda müşahidə edilən bir prosesi tədbir iştirakçılarının diqqətinə çatdırıb: "Təəssüf ki, MDB məkanında, xüsusən Ermənistanda belə hallar baş verir. Orada əvvəlki hakimiyyət Yerevanın mərkəzində faşist cəlladı və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoyub. MDB ölkələrindən olan müharibə veteranlarının böyük bir qrupu Ermənistanın əvvəlki rəhbərliyinin bu həyasız addımına qarşı dəfələrlə etirazını bildirib".

Paşinyanın cavab vermək cəhdi isə çox uğursuz olub. Onun açıqlamasından belə məlum olub ki, Njde faşistlərə xidmət etsə də, vaxtilə türklərlə mübarizə aparıb, ona görə də "qəhrəman"dır və heykəli olmalıdır. Bununla Paşinyan özünü gülünc vəziyyətə qoyub. İlham Əliyevin toxunduğu məlum məqamlar Njdenin heykəlinin sökülməsi məsələsini gündəmə gətirib. Başqa bir tərəfdən, bəzi məlumatlara görə, MDB Dövlət Başçıları Şurası iclasının sənədlərinə İkinci Dünya Müharibəsində faşistlərə xidmət edənlərin adının əbədiləşdirilməsinin yolverilməz olduğu ilə bağlı məqam daxil edilib. Maraqlıdır bu, Njdenin İrəvandakı heykəlinin sökülməsində necə rol oynaya bilər? Gələn il Böyük Vətən Müharibəsində qələbənin 75 illiyi qeyd ediləcək. O vaxta qədər sözügedən heykəl sökülə bilərmi?

*”Ancaq gərək digər MDB dövlətləri də bu yöndə səylərini artırsınlar”*

Məsələyə münasibət bildirən "İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadənin sözlərinə görə, belə bir müddəanın olması Njdenin İrəvandakı heykəlinin sökülməsinə gətirib çıxara bilər: "Ancaq gərək digər MDB dövlətləri də bu yöndə səylərini artırsınlar. Prezident İlham Əliyev həmin tədbirdə çox uğurlu çıxış edərək Ermənistanın simasını ortaya qoydu. Onun çıxışı birmənalı şəkildə ədaləti, obyektivliyi ortaya qoydu. Hesab edirəm ki, digər MDB dövlətləri də bununla bağlı lazımi addımlar atmalı və mövqe ortaya qoymalıdırlar. Çünki Ermənistanın Njdeni "qəhrəmanlaşdırması" bütün MDB dövlətlərinə, onların keçmişinə, tarixinə hörmətsizlikdir. Ona görə də bu abidənin hələ də qalması yolverilməzdir. Fikrimcə, sözügedən müddəanın sənədlərdə öz əksini tapması təsdiq olunarsa, bu, Ermənistana güclü zərbə olacaq. Azərbaycan rəhbərliyi bu məsələdə üzərinə düşən işi görüb. İndi növbə digər MDB dövlətlərinindir. Onlar bu işdə siyasi iradə ortaya qoymalıdırlar".

***Vidadi ORDAHALLI***

# Ermənilərdən ibarət Ozanyan batalyonu Suriyada Türkiyəyə qarşı mübarizəyə çağırış etdi...

**Nubar Ozanyan adına Suriya-erməni könüllüləri batalyonu Türkiyə Ordusuna qarşı mübarizədə kürdlərə qoşulmaq üçün Tel Temirdən Ras əl-Ayn şəhərinə yollanıb. Bu barədə məlumatı xarici media yayıb. Bildirilir ki, bununla əlaqədar batalyon müvafiq bəyanatla çıxış edib.**



***Hatəm Cabbarlı:** ”Meydana çıxan bu dəstə həm Ermənistan dövlətinin mövqeyinin göstəricisi, həm də həmin millətin terrora olan yaxınlığının əlaməti sayıla bilər”*

Erməni yaraqlıları Türkiyənin Suriyadakı torpaqları ələ keçirmək istədiyini iddia edir və ərəbləri, kürdləri və erməniləri Türkiyə Ordusuna qarşı çıxmaq üçün birləşməyə çağırırlar. Qeyd edək ki, hərbi bölmənin adını daşıdığı Nubar Ozanyan fəal kommunist olub və bir sıra silahlı qarşıdurmalarda iştirak edib. 2017-ci ilin avqustunda öldürülüb.

Türkiyənin Suriyada hərbi əməliyyata başladığına ilk kəskin etiraz edən Ermənistan hökuməti olub. Bunun ardınca erməni əsilli vətəndaşların Suriyada Türkiyəyə qarşı açıq müharibəyə atılması çox maraqlı görünür. Bunu necə dəyərləndirmək olar və prosesin Ermənistan hakimiyyətilə hansısa formada əlaqəsi ola bilərmi?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Suriyadakı ermənilərdən ibarət silahlı dəstənin Türkiyəyə qarşı çıxmasının səbəbləri məlumdur: "Rəsmi Ankaranın "Sülh çeşməsi" əməliyyatına ən kəskin etiraz edənlərdən biri də Ermənistan oldu. Bu iki hadisə arasında rabitənin mövcudluğuna qəti şübhə yoxdur. Ermənistan bu etirazını bölgədə yaşayan silahsız vətəndaşlara olan zorakılıq kimi əlaqələndirməyə çalışır. Meydana çıxan bu dəstə həm Ermənistan dövlətinin mövqeyinin göstəricisi, həm də həmin millətin terrora olan yaxınlığının əlaməti sayıla bilər. Bir daha sübut olunur ki, ASALA adlı erməni terror təşkilatı müxtəlif cildlərə girərək, fərqli adlarla fəaliyyətini davam etdirir.

*”Bir daha sübut olunur ki, ASALA adlı erməni terror təşkilatı müxtəlif cildlərə girərək, fərqli adlarla fəaliyyətini davam etdirir”*

Ermənilərin Yaxın Şərqdə təşkilatlanma qabiliyyətləri genişdir. Müxtəlif ölkələrdə terror aktları həyata keçirsələr də, ASALA-nın başlıca hədəfi Livan və Suriya olub. Burdan bir daha aydın görünür ki, ermənilər və Ermənistan hökuməti Türkiyəyə olan düşmən münasibətini gizlətmir. Türkiyənin Yaxın Şərqdə göstərdiyi siyasi iradə onları əlli-başlı qorxuya salıb. Bu səbəbdən də onlar yeganə çıxış yolunu silaha əl atmaqda görürlər ki, Suriyanın gələcəyində özlərinə yer edə bilsinlər. Onların Əsəd rejimi ilə problemi olmayıb. Əksinə, Əsəd rejiminə dəstək veriblər. Bu dəstənin etdiyi çıxış hadisələrə yön verə bilməz. Çünki gücləri və sayları azdır.

Hazırda həmin ərazidə ağır hərbi əməliyyatlar gedir. Bunun ermənilər simvolik olaraq Türkiyə ilə əbədi düşmən olduqlarını bir daha ortaya qoyublar. Sübut etməyə çalışırlar ki, hansı müstəvidə olursa-olsun, Türkiyə ilə mübarizə aparacaqlar. Hesab edirəm ki, bir ovuc ermənininin oradakı qışqır-bağırı nəyisə dəyişən deyil. Türkiyə orada öz sözünü deyir və əməliyyatı uğurla bitirəcək".

***Məhəmmədəli QƏRİBLİ***

# ABŞ-Türkiyə münasibətləri NATO-nu dağıtmaq həddində, türk nazirlərə düşmən münasibət - sanksiya...

***Yeganə Hacıyeva:** "Son illər ABŞ maraq və nüfuz dairələri olan həssas regionlarda ortaq fəaliyyət göstərdiyi tərəfdaşlarına da sanksiya tətbiq etməyə başlayıb"*

**Amerika Birləşmiş Ştatları Türkiyənin Suriyaya hərbi müdaxiləsinə görə bu ölkənin bəzi rəsmilərinə sanksiya tətbiq etdiyini açıqlayıb. Məlum olub ki, rəsmi Vaşinqton Suriyada həyata keçirilən "Barış bulağı" hərbi əməliyyatlarının dayandırılmaması ilə bağlı Türkiyənin üç nazirinin adını sanksiyalar siyahısına əlavə edib.**

ABŞ Maliyyə Nazirliyinin saytında verilən məlumatda bildirilir ki, adları sanksiyalar siyahısına əlavə edilən nazirlər müdafiə naziri Hulusi Akar, enerji və təbii sərvətlər naziri Fatih Donmez və daxili işlər naziri Süleyman Soyludur. Qeyd olunur ki, ABŞ Prezidenti Donald Trump, həmçinin, öz türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana zəng edərək dərhal anlaşmaya getməyi tələb edib. Türkiyə tərəfi bəyan edib ki, onun Suriyanın şimal-şərqinə müdaxilə məqsədi kürd qüvvələrini sərhəddən uzaqlaşdırmaq və Ankara hökumətinin "təhlükəsiz bölgə" kimi təsvir etdiyi ərazini yaratmaqdır.

"Təhlükəsiz bölgə" təxminən Suriya ərazisinin dərinliyinə doğru 30 kilometr ərazini əhatə edir. Türkiyə öz ərazisində yerləşmiş iki milyona qədər Suriya qaçqınını bu əraziyə köçürmək istəyir. Bazar ertəsi Vaşinqtonda jurnalistlərə müsahibə verən ABŞ maliyyə naziri Steven Mnuçin sanksiyanın "çox güclü" olduğunu və Türkiyə iqtisadiyyatı üzərində ağır təsirləri ola biləcəyini vurğulayıb. Bildiyimiz kimi, Türkiyə NATO üzvüdür və faktiki olaraq, ABŞ-ın yaxın müttəfiqi sayılır. Vaşinqtonun tətbiq etdiyi sanksiya iki ölkə arasındakı münasibətlərin gələcək perspektivinə və NATO-nun vahidliyinə necə təsir edəcək?

Beynəlxalq məsələlər üzrə ekspert Yeganə Hacıyeva "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Türkiyə Silahlı Qüvvələri Suriya Azadlıq Ordusu ilə birlikdə oktyabrın 9-dan Suriyanın şimalında "Barış bulağı" antiterror əməliyyatına başlayıb: "Türkiyənin kənardan Suriyanın şimal-şərqinə müdaxilə məqsədi kimi görsənən addımı məhz kürd qüvvələrini sərhəddən uzaqlaşdırmaq və burada təhlükəsiz bölgə kimi yaradılacaq əraziyə Türkiyədə məskunlaşmış suriyalı qaçqınların köçürülməsini həyata keçirməkdir. Təhlükəsiz bölgə 30 kilometr ərazini əhatə edir və Türkiyə iki milyona qədər Suriya qaçqınını bu əraziyə köçürməyi planlaşdırır. Ümumiyyətlə, burada bir haşiyəyə çıxım ki, ABŞ-ın xarici siyasətində məqsədlərinə çatmaq üçün sanksiyalarla hədələmə və sanksiyaların tətbiqi artıq bir normaya çevrilib. Əgər daha öncələr ABŞ sanksiyaları təhlükəsizlik, siyasi-iqtisadi mövzuda rəqiblərinə qarşı tətbiq edirdisə, son illər ABŞ maraq və nüfuz dairələri olan həssas regionlarda ortaq fəaliyyət göstərdiyi tərəfdaşlarına da tətbiq etməyə başlayıb. Məsələn, NATO tərəfdaşları olan Türkiyə, Almaniya və sair dövlətlərə qarşı.

Ekspertin sözlərinə görə, Trampın prezident seçilməsi ilə ABŞ xarici siyasətində prioritetlərin dəyişməsi, ABŞ-ın AB, Yaxın Şərq və Mərkəzi Asiya siyasətinin dəyişəcəyi barədə fikirlər çox səslənir: "Türkiyəyə istər ABŞ, istərsə də AB tərəfindən tətbiqi nəzərdə tutulan sanksiyaların nə ilə nəticələnəcəyi haqqında rəy verməmişdən öncə Türkiyənin bu addımı atmasını şərtləndirən məqamlar haqqında fikir bildirmək istəyirəm. Keçən həftə ABŞ Prezidenti Donald Trump Türkiyə Prezidenti ilə telefon danışığından sonra Suriyanın şimal-şərqindəki ABŞ qüvvələrini geri çəkdi. Bu addım, əslində, 2012-ci ildən sonra ilk dəfə Suriya ordusunun şimal-şərq bölgələrinə qayıdacağına rəvac verəcək bir addım olaraq nəzərdə tutulsa da, Suriya qüvvələri ərazinin kürd qüvvələrinin nəzarətinə keçməsinə imkan verdi. Suriya ordusu bunu digər bölgələrdə vuruşan üsyançılarla döyüşmək izahı ilə etsə də, bu, Türkiyə üçün mahiyyəti dəyişmir. Belə ki, Türkiyə burada, haqlı olaraq, hərbi kürd qruplarının və onlarla sıx təmasda olan, Türkiyədə 80-ci illərdən sonra separatçılıqla məşğul olan PKK terror qruplarının birləşməsi cəhdini gördü və bu, Türkiyə üçün öz sərhədlərində milli maraqlarının müdafiəsi üçün bu addımı atmağa, bu ərazidə hərbi əməliyyat aparmağa yol açdı. Sanksiyalara gəlsək, ABŞ Maliyyə Nazirliyi və Dövlət Departamenti Türkiyə hökumətinin ayrı-ayrı şəxslərinə, təşkilatlara qarşı sanksiyalar tətbiq etmək qərarı alıb.

Avropa Birliyinin sanksiyalarına gəlsək, AB ölkələri Türkiyəyə silah ixracını dayandırmaq kimi öhdəlik götürüblər. Müdafiə Nazirliyi və Enerji və Təbii Ehtiyatlar Nazirliyinə tətbiq olunan sanksiyalar, ümumiliklə, cəmiyyəti mövcud hakimiyyətdən narazı salacaq geniş bir strategiyanın bir hissəsi kimi nəzərdə tutulur, nazirlərə tətbiq olunan sanksiyanın təsirini şərh etmək isə, ümumiyyətlə, mənasızdır.

ABŞ-ın digər ölkələrə - Rusiya, İran və s. tətbiq etdiyi sanksiyalar təcrübəsindən belə qənaətə gəlmək olur ki, sanksiyaların növbəti mərhələsi olaraq maliyyə-bank sektoruna sanksiyalar tətbiq oluna bilər. Bu isə onsuz da illərdir 3 milyon ərəb qaçqınını yedirən Türkiyə iqtisadiyyatı üçün narahatlıqla nəticələnəcək. Ancaq onu da qeyd edim ki, istər ABŞ , istərsə də AB ilə bağlı Türkiyənin sanksiyalara cavab olaraq kontr-kart kimi istifafə edə biləcəyi məqamlar var".



*"NATO Türkiyənin üzləşdiyi vəziyyətə uyğun olaraq, təşkilatın 5-ci maddəsini tətbiq etmək əvəzinə, onun sanksiyaya məruz qalmasına imkan verir"*

Ekspertin sözlərinə görə, ABŞ-ın bu addımı çox təzadlıdır: "NATO tarixində görünməyən hadisədir. Ağ Ev ərazi bütövlüyünə təhdidin qarşısını aldığı üçün NATO-nun üzvünə, Türkiyəyə qarşı sanksiya tətbiq edib. NATO Türkiyənin üzləşdiyi vəziyyətə uyğun olaraq, təşkilatın 5-ci maddəsini tətbiq etmək əvəzinə, onun sanksiyaya məruz qalmasına imkan verir, göz yumur. Türkiyə 1952-ci il fevralın 18-də Şimali Atlantika Alyansına üzv qəbul olunub. Ötən illər ərzində Türkiyə alyansın maraqlarını müdafiə edib. Əfqanıstan savaşı, İŞİD, "əl-Qaidə" terrorçu qruplaşmalarına qaşrı birgə mübarizədə, ABŞ başda olmaqla, NATO dövlətləri ilə birlikdə fəaliyyət göstərib.

Ancaq indi Türkiyənin ərazi bütövlüyü və milli təhlükəsizliyi təhdidlə üz-üzədir. 5-ci maddə unudulub. Bu maddəyə əsasən, üzv ölkələrdən biri təcavüzə, o cümlədən, terror hücumuna məruz qalarsa, hərbi ittifaq həmin dövlətə yardım etməlidir. İndiki halda bu maddənin Türkiyənin müdafiəsi ilə bağlı tətbiq edilməsi vacib sayılır. Deməli, bu qənaətə gəlmək olar ki, NATO Türkiyə ilə yollarını ayırmaq istəyir. Burada kimin udacağı, kimin isə məğlub olacağı hələ ki, sual altındadır".

***Məhəmmədəli QƏRİBLİ***

**Erməni mediasının verdiyi məlumata görə, ermənilər Şuşa şəhərindəki Gövhər ağa məscidinin "təmir-bərpa"sından sonra açılış mərasimi keçiriblər. Qeyd edilir ki, İranın "Part Saman Jahan" memarlıq şirkətinin iştirakı və erməni əsilli Rusiya biznesmeni Ruben Vardanyanın "İDEA" fondunun maliyyə yardımı ilə aparılan "təmir işləri"ndən sonra ermənilər 1883-cü ildə ərsəyə gələn Yuxarı Gövhər ağa məscidini "İran memarlığının nümunəsi" olaraq təqdim ediblər.**

# Şuşada İran-erməni elm-mədəniyyət mərkəzi? - Açılışda İrandan kimsə iştirak etmədi...

## *Nəzakət Məmmədova: "Ermənistanın bu əməlinə İranın göz yumması onu da bu qanunsuzluğa ortaq etmiş olur"*



Qeyd olunub ki, məscidin "təmiri"nə 2014-cü ildən start verilib və nəhayət, işlər başa çatdırılıb. Qondarma qurumun başçısı Bako Saakyanın iştirakı ilə keçirilən tədbirdə sərsəm iddialar səsləndirilib: "İran İslam Respublikasında bizim monastır və kilsələr qorunur. Biz də "Artsax" ərazisində, həmçinin, Şuşada İran mədəniyyəti abidələrinin bərpası ilə məşğul oluruq. Bu, İran-erməni dostluğunun nümunəsidir". Bildirilib ki, bu kompleks İran-Ermənistan elm və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərəcək.

Rəsmi Bakı bir neçə gün öncə ermənilərin bu tarixi saxtalaşdırmaq cəhdinə etiraz edib. Maraqlıdır ki, Azərbaycanın işğal altında olan şəhərində "təmir" olunan məscidin İran-Ermənistan elm və mədəniyyət mərkəzi kimi fəaliyyət göstərəcəyinə dair xəbər verilir, amma açılışda bir nəfər də olsun İran nümayəndəsi olmayıb. Əgər bu, növbəti erməni təxribatı deyilsə, onda İran dövləti buna niyə etiraz etmir?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, məscidin təmiri İranın Ermənistanın işğalçılıq siyasətinə dəstək verməsinin növbəti təzahürüdür: "Bu, tamamilə qanunsuz bir addımdır. Ermənistanın bu əməlinə İranın göz yumması onu da bu qanunsuzluğa ortaq etmiş olur. İşğal olunmuş Azərbaycan torpaqlarında yerləşən tarixi abidənin işğalçılar tərəfindən təmir olunmasına İran mütləq şəkildə etiraz etməli idi. Digər tərəfdən, İran UNESCO təşkilatının müsəlman üzvü olaraq

***"İşğal olunmuş Azərbaycan torpaqlarında yerləşən tarixi abidənin işğalçılar tərəfindən təmir olunmasına İran mütləq şəkildə etiraz etməli idi"***

Ermənistanın Qarabağdakı müsəlman tarixi abidələrinə qarşı barbarlıq əməli baş verən zaman etirazını bildirməli idi. Lakin, görünür, İrana bu sərf edir. Üstəlik, həmin abidəni İran şirkətinin təmir etdiyi bildirilir. İran tərəfi isə guya bundan xəbərsiz olduğunu bildirir. Halbuki, İran çox güclü kəşfiyyatı olan ölkədir və istər ölkədə, istər ölkə xaricində fəaliyyət göstərən şirkətlərin fəaliyyəti barədə müfəssəl məlumatlara malikdir. Həmin abidə İran-Ermənistan mədəniyyət mərkəzi kimi fəaliyyət göstərəcəksə, bu, birbaşa İran xüsusi xidmət orqanlarının nəzarəti altında olması deməkdir. Çünki, bir qayda olaraq, dünyada mədəniyyət mərkəzləri xüsusi xidmət orqanlarının nəzarətində olurlar.

Bu baxımdan həmin məscidin İran xüsusi xidmət orqanlarının Azərbaycanın işğal olunmuş ərazilərində fəaliyyət göstərən örtük təşkilatı olacağı şübhə doğurmur. Hesab edirəm ki, İranın "Part Saman Cahan" şirkəti haqda beynəlxalq hüquqi məsuliyyət yaradan tədbirlər görülməlidir. UNESCO təşkilatında İranın məsuliyyəti məsələsi qaldırılmalıdır.

**Abidənin restavrasiyasında iştirak edən əcnəbi vətəndaşları XİN arzuolunmaz şəxslər siyahısına daxil etməlidir. Məlumata görə, İrandan 12 nəfər, habelə İtaliyadan olan mütəxəssis məscidin bərpasında iştirak edib".**

*Məhəmmədəli* ***QƏRİBLİ***

**Ermənistanın Baş naziri Nikol Paşinyanın həyat yoldaşı, Təbəssüm Şəhəri Xeyriyyə Fondunun Himayəçilər Şurasının sədri Anna Akopyan keçən şənbə Cenevrədə İsveçrə Qırmızı Xaç Cəmiyyətinin təşkil etdiyi və bu il "Qocalarımızın həyatını işıqlandırın" şüarı altında Ermənistana həsr olunmuş ənənəvi xeyriyyə gecəsində iştirak edib.**

# Paşinyanın həyat yoldaşı pul yığmaq üçün indi də Cenevrədə marafonlara çıxıb

## *Əli Orucov: "Bu onu göstərir ki, ermənilər həmişə ələbaxan olublar və öz yazıq, dilənçi görkəmləri ilə dünyanı bezdiriblər"*



Tədbirdə bütün ermənilərin katolikosu II Qaregin də iştirak edib.

Bu ilin əvvəlində İsveçrə Qırmızı Xaç Cəmiyyətinin nümayəndələri nəzərdə tutulan xeyriyyəçilik missiyasını yerinə yetirmək, yerdəki vəziyyətlə yaxından tanış olmaq, fikir mübadiləsi aparmaq və erməni həmkarları ilə işi əlaqələndirmək üçün Ermənistana səfər ediblər. Tədbirin əsas məqsədi toplanmış vəsaiti Ermənistandakı yaşlı və əlil insanların ehtiyaclarının ödənilməsinə həsr etməkdir. Tədbirdə hökumət və siyasi xadimlər, diplomatlar, bir çox tanınmış İsveçrə və xarici iş, sənət adamı və İsveçrədəki erməni icmasının nümayəndələri iştirak ediblər.

Nikol Paşinyan Baş nazir olandan sonra onun həyat yoldaşı A.Akopyan tez-tez belə dilənçi xarakterli marafonlar təşkil edir. Xüsusən də Avropa ölkələrində və ABŞ-da belə marafonlar keçirilir. Ancaq onun bu yöndə fəaliyyəti heç də hər zaman uğurlu alınmır. Məsələn, bir neçə ay əvvəl A.Akopyan ABŞ-a səfəri çərçivəsində Bostonun erməni icması ilə görüşüb. Bostonun erməni icması A.Akopyanın başçılıq etdiyi fonda cəmi 150 min dollar ianə verib. Akopyanın sözügedən dilənçilik fəaliyyətinin bu cür nəticələnməsi, yəni gözləniləndən əksinə olaraq, çox az vəsaitin yığılması Ermənistan cəmiyyətində birmənalı qarşılanmayıb. İndi də Akopyan din adı altında İsveçrədə pul dilənir.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən AMİP funksioneri Əli Orucovun sözlərinə görə, ermənilər tək indi Paşinyanın həyat yoldaşının timsalında dilənmirlər: "Bu onu göstərir ki, ermənilər həmişə ələbaxan olublar və öz yazıq, dilənçi görkəmləri ilə dünyanı bezdiriblər. Gah bu dilənciliyin adını

***"Xeyriyyəçi aksiyalarda iştirak etməklə Anna Akopyan da əri kimi..."***

xeyriyyəçilik adlandırıblar, gah da yardım marafonu kimi təqdim ediblər. Lakin bütün bunların necə adlandırılmasından asılı olmayaq, məqsəd pul qopartmaq və həmin pulları da öz ehtiyacları üçün xərcləməkdir. Ermənistan rəhbərləri, Paşinyan da daxil olmaqla, qocalara, uşaqlara belə qayğıkeş yanaşan idisə, bəs nədən Qarabağda yüzlərlə qoca və uşağı qətlə yetirirdilər? Yürütdükləri təcavüzkar siyasətlə erməni rəhbərləri öz xalqını bu gün dilənçi kökə salıb didərgin edib. Qocaları aç-yalavac ehtiyac içərsində qoyub. Xeyriyyəçi aksiyalarda iştirak etməklə Anna Akopyan da əri kimi öz xislətini və yırtıcı sifətlərini ört-basdır edə bilməzlər. Çünki mənsub olduqları dövlətin işğalçılığı və terroru nəticəsində bütöv bir regionda humanitar fəlakət baş verib. Bir milyondan çox insan, o cümlədən, qocalar, ahıllar, yaşlı insanlar doğma yurd-yuvalarının həsrətini çəkir. Həmçinin, olmazın məhrumiyyətlər içərsindədir.

Xocalı kimi soyqırım həyata keçirən bir dövlətin, hətta bir millətin nə özü, nə də rəsmi və digər nümayəndələri, ümumiyyətlə, humanizm sözünü işlətməməli, belə tədbirlərə buraxılmamalıdır. Həmin A.Akopyan bir müddət əvvəl də özünü "sülh mələyi" qismində təqdim etməyə çalışaraq, əsgər analarının göz yaşı axıtmaması aksiyasına start vermişdi. Lakin bu aksiya dəstək qazanmadı. Çünki anaların göz yaşlarına səbəb olan elə onun əri və Paşinyanın sələfləri olub".

***Vidadi ORDAHALLI***

# Azərbaycan vətəndaşlığından çıxmadan Rusiya vətəndaşlığı almaq mümkün olacaq

*Rusiyada yeni qaydadan Azərbaycan yox, Ermənistan daha çox itirəcək*

**Qeyri-neft sektoru üzrə xaricdən Azərbaycana pul daxil olmasında şimal qonşumuz hələ də mühüm rol oynamaqda davam edir. Bunu statistik göstəricilər də təsdiq edir. Məsələn, 2019-cu ilin ilk altı ayında Rusiyadan Azərbaycana fiziki şəxslər tərəfindən 417 milyon dollar göndərilib.**

Rusiyanın Mərkəzi Bankının məlumatlarında qeyd olunur ki, Azərbaycana hər göndərişdə orta hesabla, təxminən, 300 dollar göndərilir. İlin sonuna kimi Rusiyadan Azərbaycana köçürmələrin 1 milyard dollara yaxınlaşması istisna olunmur.

Ümumiyyətlə, real vəziyyət bir daha təsdiq edir ki, ölkə xaricində soydaşlarımızın çalışdığı əsas dövlət qismində hələ də Rusiya çıxış edir. Həmçinin, proseslər göstərir ki, Rusiyanın özünün də əməkçi miqrantlara ehtiyacı böyükdür. Hətta iş o yerə çatıb ki, Rusiya belə şəxslər üçün vətəndaşlıq məsələsini də asanlaşdırmağa hazırlaşır. Məsələ burasındadır ki, Rusiya vətəndaşlığı alınması qaydalarına dəyişikliklər nəzərdə tutulur. Bu fonda Rusiya vətəndaşlığını almaq istəyən əcnəbilər əvvəlki vətəndaşlıqlarını da saxlaya bilər. Bu təklif artıq Rusiya İqtisadi İnkişaf Nazirliyinin 2020-2022-ci illər üçün federal dövlət büdcəsinə əlavə etdiyi sənədlərdə əksini tapıb. Nazirliyin məlumatına görə, gələcəkdə Rusiya ikinci vətəndaşlıqdan imtina tələbini ləğv edə bilər. Bundan əlavə, Rusiya ali məktəblərində, eləcə də MDB və Baltikyanı dövlətlərin aparıcı universitetlərində təhsil almış əcnəbilərin ölkədə müvəqqəti qalmaq və yaşamaq, vətəndaşlıq almaq qaydaları asanlaşdırılacaq.

Ekspertlər hesab edir ki, bu durumda Rusiyada daha asan və rahat fəaliyyət göstərmək üçün miqrantalrın bu ölkənin vətənaşlığın alması halları genişlənəcək. Bura müəyyən sayda azərbaycanlıların da daxil olması istisna edilmir. Miqrasiya məsələləri üzrə ekspert Azər Allahverənov da vurğulayır ki, Rusiya ikinci vətəndaşlıqdan imtina tələbini ləğv etsə, əcnəbi şəxs əvvəlki vətəndaşlığını da saxlamaqla rahat şəkildə Rusiya vətəndaşlığı əldə edə bilər: "Məsələn, Azərbaycan vətəndaşı olan şəxs Rusiya vətəndaşı olsa, deməli, Azərbaycan vətəndaşlığından imtina etməyə bilər. Azərbaycan qanunvericiliyinə görə, biz birmənalı şəkildə onun Azərbaycan vətəndaşlığından çıxması məsələsini qoya bilmərik. Azərbaycan qanunvericiliyinə görə, bir şəxs başqa ölkənin vətəndaşlığını əldə edirsə, o yalnız 1 ay ərzində bizim diplomatik qurumları məlumatlandırmalıdır ki, digər ölkənin vətəndaşlığını əldə edib. Və bu zaman həmin şəxsin qarşısında Azərbaycan vətəndaşlığından çıxmaq tələbi irəli sürülmür. Əgər bir ay ərzində diplomatik qurumlara məlumat verməsə, buna görə məsuliyyət daşıyır. Cinayət Məcəlləsində bununla bağlı xüsusi bir müddəa var və bu 2014-cü ildən qüvvədədir. Digər məsuliyyət nəzərdə tutulmur". O qeyd edib ki, 2013-cü ildən etibarən Rusiya ikinci vətəndaşlıqdan imtina tələbini qoyub və bu, həm də Azərbaycan vətəndaşlarına şamil olunub: "Və eyni-lə Azərbaycan vətəndaşı olmaq istəyən Rusiya vətəndaşlarının qarşısında da bu tələb irəli sürülüb, yəni şəxs yalnız Rusiya vətəndaşlığından imtina etdikdən sonra Azərbaycan vətəndaşlığına qəbul edilə bilər. Rusiya ikinci vətəndaşlıqdan imtina tələbini ləğv etsə, Rusiya vətəndaşlığını əldə etmək istəyən şəxslərin, o cümlədən də Azərbaycan vətəndaşlarının sayında müəyyən artım hiss edə bilərik. Təklif qəbul edilsə, məsələn, şəxs Azərbaycan vətəndaşlığında qalmaq şərtilə Rusiya vətəndaşlığını əldə edib oradakı güzəşt, sosial paket və digər imkanlardan yararlanmaq imkanı əldə edə bilər. Düşünürəm ki, belə insanların sayı çox ola bilər". Xatırladaq ki, Rusiya MDB məkanında ən yüksək səviyyədə müavinətlər verən ölkələrdən biri sayılır. Bu isə miqrantları həmin ölkənin vətəndaşlığını almağa stimullaşdıran daha bir addım sayılır. Ekspertlər hesab edir ki, belə vəziyyətdə Azərbaycandan müəyyən sayda insan Rusiya vətəndaşlığı ala bilər. Amma bu, ölkəmiz üçün ciddi problem olmayacaq. Ən böyük zərbənin isə daha çox Ermənistan, Özbəkistan, Taciksitan, Qırğızıstan kimi ölkələrə dəyməsi gözlənilir. Xüsusən belə vəziyyətdə Ermənistanda onsuz da azalan əhalinin sayının daha sürətlə azalması və ölkə vətəndaşlarının böyük əksəriyyətinin Rusiya vətəndaşı olması gözlənilir. Bu isə Ermənistan üçün əlavə demoqrafik problemlərin yaranması deməkdir.




Azərbaycanın bu məsələdən daha az əziyyət çəkməsini şərtləndirən səbəb ölkədə iqtisadi durumun yüksək olması, Rusiyaya iş dalınca gedən soydaşlarımızın sayının azalması, ölkənin özünün miqrantlar üçün cəlbedici məkana çevrilməsidir. Xatırladaq ki, hər il əməkçi miqrantların sayı ilə bağlı ölkəmizdə xüsusi komissiya tərəfindən kvota müəyyən edilir. Bu il Azərbaycan üçün müəyyən edilən kvota 6815 nəfərdir. Bu il artıq 4500 nəfər əməkçi miqrant icazə üçün müraciət edib və rəsmi iş icazəsi alıb. Amma iş icazəsi tələb olunmadan işləyən kateqoriya da var. Məsələn, Azərbaycan vətəndaşı ilə nigahda olan əcnəbi, 5 illik daimi yaşama icazəsi olan şəxslər də iş icazəsi olmadan işləyə bilər. Bir illik iş icazəsinin dövlət rüsumu 1000 manatdır. Xatırladaq ki, kvotalara uyğun olaraq da Azərbaycanda işləmək istəyən şəxs Dövlət Miqrasiya Xidmətinə müraciət edir. Miqrasiya Xidməti aidiyyəti olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, digər dövlət qurumlarının rəylərini almaqla onlara iş icazələri verir. Eyni zamanda, konkret olaraq iş yerləri ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin vahid vakansiya bazası mövcuddur. Hazırda həmin vakansiya bazasının elektronlaşdırılması üzərində işlər yekunlaşmaq üzrədir. Tezliklə həmin sistem Azərbaycanda fəaliyyət göstərən əcnəbilərin istifadəsinə veriləcək. Azərbaycanda xaricilərin ən çox işlədiyi sahələr neft-qaz sənayesi, tikinti və xidmət sektorudur. Eləcə də Azərbaycanda təhsil sahəsində çalışan əcnəbi ekspertlər də var. Ölkəmizdə çalışan əcnəbilərin sayının illər üzrə artması bundan sonra da prosesin eyni qaydada davam edəcəyini istisna etmir.

***Nahid SALAYEV***

# Bakı müasir dünya düzəni üçün inqilabi hadisəyə evsahibliyi etdi - Türk Dövlətləri Təşkilatı yaradıldı

## *Türkmənistan sonuncu türk dövləti kimi təşkilata dəvət aldı...*

**Oktyabrın 15-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşü keçirilib. Prezident İlham Əliyev Zirvə Görüşünü açaraq dövlət və hökumət başçılarını salamlayıb. Qırğız Respublikasının Prezidenti Sooronbay Jeenbekov çıxış edərək, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyin Azərbaycana keçdiyini bildirib.**

Prezident İlham Əliyev Zirvə Görüşündə çıxış edib.

Sonra dövlət başçısı "Türk dünyasının Ali Ordeni"ni Qazaxıstan Respublikasının birinci Prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının fəxri sədri Nursultan Nazarbayevə təqdim edib.

Zirvə Görüşündə Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev, Macarıstanın Baş naziri Viktor Orban, Türkmənistan Baş nazirinin müavini Purli Aqamuradov, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev çıxış edib.

Növbəti Zirvə Görüşünün Türkiyə Respublikasında keçirilməsi qərara alınıb.

Daha sonra sənədlərin imzalanması mərasimi olub.

Azərbaycan Prezidenti İlham Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VII Zirvə Görüşünə yekun vurub.

Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında sədrliyi dövründə ölkələr arasında əməkdaşlığın möhkəmlənməsinə səy göstərəcək. Bunu Prezident İlham Əliyev deyib.

"Şura siyasət, iqtisadiyyat, turizm və s. sahələrdə mühüm rol oynayır", - Əliyev Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VII Zirvə görüşündə çıxışı zamanı bildirib.

Şuraya sədrlik Qırğızıstandan Azərbaycana keçib.

"Azərbaycan TDƏŞ-də sədrliyi qəbul edir. Biz üzv ölkələri arasında münasibətlərin dərinləşməsi və genişlənməsi üçün daha artıq səy göstərəcəyik", - Prezident qeyd edib.

Əliyev bəyan edib ki, bu il TDƏŞ-nin yaranmasının 10 ili tamam olur. TDƏŞ-in ilk sammiti Azərbaycanın Naxçıvan Muxtar Rspublikasında keçirilib.

"Bildiyiniz kimi, Naxçıvan Azərbaycanın material hissəsindən ayrılıb. Onların arasında Zəngəzur yerləşir. Zəngəzurun Ermənistana verilməsi Türk dünyasında coğrafi parçalanma yaratdı", - prezident vurğulayıb.

İ.Əliyev qeyd edib ki, Azərbaycanın işğal olunmuş ərazilərində məscidləri dağıdan Ermənistan islam dünyasının dostu ola bilməz. "Ermənistan işğal etdiyi ərazilərdə Azərbaycanın tarixi-mədəni irsini məhv edir. Ermənistan beynəlxalq təşkilatların qərarlarına məhəl qoymur və onların yerinə yetirilməsi üzrə öhdəliklərdən boyun qaçırır", - o vurğulayıb.

Əliyev əlavə edib ki, 2019-cu ilin 9 ayı ərzində Azərbaycana 2,4 mln. turist səfər edib. "Onların 330 min nəfəri tükdilli dövlətlərin payına düşüb. Bir il öncə həmin ölkələrdən turistlərin sayı 285 min nəfər olub", - o bildirib.

Sammit çərçivəsində Qazaxıstanın ilk prezidenti Nursultan Nazarbayev TDƏŞ-in ali ordeni ilə təltif olunub və ordeni İlham Əliyev təqdim edib.

Qazaxıstanın birinci prezidenti, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) fəxri sədri Nursultan Nazarbayev Şuranı Türk Dövlətləri Təşkilatı adlandırmağı təklif edib.

"İki təklifim var - "Türk Baxışı 2040" proqramının hazırlanması və TDƏŞ-in adının dəyişdirilməsi. Hesab edirəm ki, Şuranı təşkilat səviyyəsinə qaldırmaq mümkündür. Bununla əlaqədar şuramızı Türk Dövlətləri Təşkilatı adlandıra bilərik", - deyə N.Nazarbayev Bakıda TDƏŞ-in 7-ci Zirvə görüşündə bildirib.

Qırğızıstan prezidenti Soronbay Jeenbekov Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (TDƏŞ) üzv ölkələrə İT texnologiyaları və yaşıl iqtisadiyyat sahəsində əməkdaşlığı gücləndirməyi təklif edib.

"İT texnologiyaları və yaşıl iqtisadiyyat sahəsində əməkdaşlığı gücləndirməyi təklif edirəm", - deyə o, TDƏŞ-in 7-ci Zirvə Görüşündə bildirib.

Prezident həmçinin qeyd edib ki, TDƏŞ ölkələri kənd təsərrüfatı sahəsində və nəqliyyat dəhlizləri ilə bağlı əməkdaşlığı genişləndirə bilər.

"Qırğızıstan və Qazaxıstanın Avrasiya İqtisadi Birliyinə üzv olması TDƏŞ-dəki tərəfdaşlarımız üçün 190 mln. nəfəri əhatə edən bazar açır", - deyə S.Jeenbekov əlavə edib.

Türkiyə BMT Təhlükəsizlik Şurasına təqdim olunan plana əsasən Suriyada terrorçulara qarşı əks-terror hərbi əməliyyatı həyata keçirir. Bunu Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Dövlətimizin şimal sərhədlərində terrorçulara qarşı əməliyyatlara başlarkən mühüm addımlar atmışıq. Əməliyyat BMT Təhlükəsizlik Şurasına təqdim olunan plana əsasən həyata keçirilir", - Ərdoğan Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) VII Zirvə görüşündə çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, Ankara "terror təhlükəsi tam aradan qalxmayana qədər hərbi əməliyyatları davam etdirəcək". "Terrorizmlə mübarizədə bizi dəstəkləmənizi xahiş edirəm", - o əlavə edib.

Türkiyə birinci mərhələdə Suriyaya 1 mln. qaçqını, ikinci mərhələdə - daha 2 mln. nəfəri qaytaracaq. Bunu da prezident Rəcəb Tayyib Ərdoğan deyib.

"İnşallah, qısa zaman ərzində İraqa qədər sərhədimizi təhlükəsiz vəziyyətə gətirildən sonra ilk mərhələdə 1 mln. qaçqın, ikinci mərhələdə - daha 2 mln. nəfər Suriyaya qayıdacaq", - Ərdoğan bildirib.

"Türkiyə Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində sülh yolu ilə həllinə kömək etməyə davam edəcək" deyən Ərdoğan "Azərbaycan torpaqlarının - Dağlıq Qarabağ və ona bitişik 7 rayonun Ermənistan tərəfindən işğal olunması nəticəsində 1 milyondan çox insan evlərini tərk etməyə məcbur olub. BMT Baş Assambleyasının iclasında qeyd edildiyi kimi, bu, qəbuledilməz vəziyyətdir", - deyə bildirib.

Onun sözlərinə görə, Ankara Dağlıq Qarabağ probleminin ən qısa müddətdə Azərbaycanın ərazi bütövlüyü əsasında sülh yolu ilə həlli üçün bundan sonra da əlindən gələni edəcək.

Ərdoğan bəyan edib ki, Türkmənistanın Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv olmasına şad olardı:"TDƏŞ-in növbəti sammiti Türkiyədə keçiriləcək. Həmin tədbirdə Türkmənistanı görməyə şad olardıq. Bir xalqın 6 dövlətinin (türk - İF) hər biri tam tərkibdə birlikdə olacaq". Onun sözlərinə görə, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının (TDƏŞ) 8-ci Zirvə görüşünün 2020-ci ildə keçirilməsi planlaşdırılır.



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistanın mövqeyi Qarabağda antiterror əməliyyatlarını qaçılmaz edir - Bakıda Türk Zirvəsindən sonra təcavüzkarın narahatlıqları artır...

**Dağlıq Qarabağ münaqişəsinin çözümünün uzanmasının artıq beynəlxalq dairələrdə də ciddi narahatlıq yaratması müşahidə edilməkdədir. Çünki belə vəziyyət regionda savaşın yenidən başlanmasını istisna etmir və indiki halda yeni müharibə dünya üçün ciddi təhdid sayılır. Məsələnin bu tərəfinə nəzər salan NATO-nun baş katibi Yens Stoltenberq Londonda keçirilən NATO Parlament Assambleyasının iclasında bildirib:**

"Dağlıq Qarabağ münaqişəsi hələ həll edilməyib və biz münaqişəyə uzunmüddətli siyasi həll tapa bilməməyimizdən narahatıq".

O qeyd edib ki, Şimali Atlantika Alyansı ATƏT-in Minsk Qrupunun Dağlıq Qarabağ münaqişəsinin siyasi həllinə yönəlmiş səylərini dəstəkləyir: "Məlumdur ki, bu münaqişənin həllində NATO, hələ ki, birbaşa rol oynamır, lakin biz siyasi həll axtarılması məsələsində ATƏT-in Minsk Qrupunun həmsədrlərini dəstəkləyirik". Amma o da faktdır ki, məsələnin siyasi həlli üçün Minsk Qrupunun indiyə qədər göstərdiyi fəaliyyət hansısa nəticə verməyib. Vəziyyətin bu şəkildə qalması isə savaş ehtimalını sürətlə artırır. Xüsusən də Azərbaycanın antiterror əməliyyatlarına istənilən an start verməsi tamamilə mümkün sayılır. Əslində, qardaş Türkiyənin Suriyanın şimalında başlatdığı əməliyyatlardan sonra bu məqam Ermənistanın özündə də böyük xof yaradıb. Ermənistan hökumətinə yaxınlığı ilə seçilən erməni politoloq, Xristian Demokrat Partiyasının sədri Levon Şirinyan məsələ ilə bağlı bildirir ki, Ermənistanı Türkiyə-Suriya konfliktindən yaxşı heç nə gözləmir: "Azərbaycan hərbi əməliyyatlara start verə bilər. Rusiya bunun qarşısını almayacaq". Rusiyalı hərbi ekspert Pavel Felqenhauer də qeyd edir ki, Türkiyənin Suriyadakı əməliyyatı Ermənistan üçün dolayı yolla böyük təhlükələr yaradır. Ekspert qeyd edib ki, son zamanlar Qarabağda da gərginlik var: "Oradakı vəziyyət bu cürdür ki, münaqişənin yenidən başlaması ehtimalı var. Regionda vəziyyətin gərginləşməsi müharibənin yenidən başlamasına töhfə verir. Türkiyənin terrorçulara qarşı apardığı kampaniya birbaşa ermənilərə təsir etmir, lakin Moskva və Ankara arasında növbəti nəticə olsa, o zaman Ermənistan bu orbitə düşə bilər".

Eyni mövqeni rusiyalı politoloq Vladimir Lepexin də bölüşür: "Türkiyənin Suriyada həyata keçirdiyi əməliyyatlar bu ölkənin bölgədəki mövqelərini gücləndirəcək. Ən başlıcası, Türkiyə kürd silahlı qüvvələrini sıxışdıracaq, təkcə kürdləri yox, Suriya, ABŞ və Rusiyanı da öz şərtlərini müzakirə etməyə məcbur edəcək. İkincisi, Rusiya bölgənin əsas oyunçusuna çevrilir. Üçüncüsü, ərəb dünyası ölkələrinin Türkiyənin istəklərinə zidd olaraq bir qədər konsolidasiyasını gözləmək olar. Dördüncüsü, Türkiyənin bu uğurlu əməliyyatlarından sonra Azərbaycanın bölgədəki rolu kəskin artacaq ki, bu da Ermənistanda Nikol Paşinyanın mövqeyini zəiflədir". Rus politoloq hesab edir ki, Azərbaycan Rusiya və Türkiyə arasında vasitəçi rolunu oynaya bilər: "Bakı, şübhəsiz ki, Moskva ilə Ankara arasındakı təmaslarda fəal vasitəçi olacaq. Azərbaycan Avrasiya İttifaqı və KTMT-yə daha sıx inteqrasiya qarşılığında Qarabağ probleminin Bakının maraqları nəzərə alınmaqla həll olunmasında əlavə üstünlüklər qazanacaq. Digər yandan, Qərblə münasibətləri inkişaf etdirməyə güvənən Ermənistanın hazırkı rəhbərliyi öz havadarları, əsasən də Rusiya tərəfindən tərk ediləcək".

Erməni siyasi analitik Ara Papyan da qeyd edir ki, Rusiyanın Ermənistandan dəstəyini geri çəkdiyi bir vaxtda Azərbaycanın hərbi əməliyyatlara başlaması İrəvan üçün dəhşətli sonluğa yol aça bilər. Azərbaycanın isə yaranmış vəziyyətdə belə əməliyyata başlaması ehtimalı getdikcə artır. Məhz Ermənistanda da narahatlıq yaradan budur ki, Azərbaycan Türkiyənin dəstəyi ilə antiterror əməliyyatına başlasa, Rusiya onları durdurmaq üçün heç bir addım atmayacaq. Ara Papyan hadisələrin, əslində məhz bu istiqamətdə inkişaf ehtimalının xeyli artdığını vurğulayır:

"Xatırlatmaq lazım gəlir ki, Rusiyanın xarici işlər naziri Sergey Lavrovun hələ "Valday" konfransı zamanı Ermənistana ünvanladığı Qarabağ bəyanatı Kremlin mövqeyini açıq göstərdi. Lavrovun bu cür bəyanatı Ermənistan üçün tamamilə qeyri-məqbul olsa da, Moskvanın mövqeyini göstərir. İlham Əliyevin "Valday"da səsləndirdiyi "Qarabağ Azərbaycandır və nida işarəsi" bəyanatına heç bir cavab olmadı. Rusiya tərəfi bununla mövqeyini göstərdi. İndi bu vəziyyətdə Azərbaycanın hərbi əməliyyatlara başlaması və Türkiyədən dəstək almasına Rusiyanın seyrçi qalacağı şübhə doğurmur. Ermənistanın isə təkbaşına türklərin öhdəsindən gəlməsi ağlabatan deyil. Hər halda, hadisələrin axarı bizim lehimizə deyil".

Ara Papyan bildirir ik, bu vəziyyətdə rus hərbi bazasının Ermənistandan çıxarılması istiqamətində atılan addımlar ölkəsinin vəziyyətini xeyli ağırlaşdıracaq. Bu xüsusda xatırladaq ki, bu günlərdə terrorçu mahiyyəti ilə tanınan "Sasna Tsrer" partiyasının katibliyinin koordinatoru Varujan Avetisyan Ermənistan Milli Təhlükəsizlik Xidmətinin dağıdılması və milli sistemin qurulmasına dair təmsil etdiyi partiyanın planlarını təqdim edib. Avetisyanın sözlərinə görə, bu plan iki mərhələdən ibarətdir. Birinci mərhələdə "Sasna Tsrer" Milli Təhlükəsizlik Xidmətinin bütün generallarını və polkovniklərini sistemdən uzaqlaşdırmağı, struktur dəyişikliyini həyata keçirməyi və digər şeylərlə yanaşı, sərhəd qoşunlarına nəzarəti Milli Təhlükəsizlik Xidmətindən almaq və Müdafiə Nazirliyinin tərkibinə verməyi tövsiyə edir.

Erməni hərbi ekspert David Arutyunovun sözlərinə görə, Milli Təhlükəsizlik Xidmətinin nəzarəti altında olan sərhəd qoşunları Ermənistana daxil olan və çıxanları idarə etmək imkanı verir və bu, təhlükəsizliyin təmin olunmasının vacib tərkib hissəsidir: "Müdafiə Nazirliyində isə bu nəzarət mexanizmləri və təhlil apara biləcək lazımi əməliyyat sistemi yoxdur. Sərhəd işləri Müdafiə Nazirliyinin funksiyasına aid olmayan müəyyən sistemlərin tətbiq edilməsini nəzərdə tutur. Sərhədçilərin məsələsi Müdafiə Nazirliyinin səlahiyyətlərinə aid deyil, buna görə də bu tezis "Sasna Tsrer" tərəfindən yalnız siyasi kontekstdə irəli sürülür və bu, Rusiyanın təsir dairəsi kimi qəbul edilən Milli Təhlükəsizlik Xidmətini zəiflətmək məqsədi daşıyır. Deyim ki, son 30 ildə Milli Təhlükəsizlik Xidməti çox böyük dəyişikliklərə məruz qalıb və indiki qurum sovet xüsusi xidmət orqanlarından fərqlənir". Onun sözlərinə görə, sərhəd qoşunlarının Milli Təhlükəsizlik Xidmətindən çıxarılması daha böyük siyasi proqramın bir hissəsidir, ancaq "Sasna Tsrer" üçün problem Milli Təhlükəsizlik Xidmətinin Rusiyanın təsiri altına düşdüyü məsələsidirsə, niyə digər təsir altında olan Rusiyanın Ermənistandakı iqtisadi qollarına toxunulmaması aydın deyil:

"Rusiya amili 102-ci hərbi bazanın qoruduğu Ermənistan-Türkiyə sərhədində də mövcuddur. İndi Milli Təhlükəsizlik Xidmətini dağıtmaqla Rusiya faktorundan qurtulmağı təklif edirlərsə, sual yaranır, belə olan halda Ermənistan-Türkiyə sərhədini qoruyan başqa bir Rusiya amili - 102-ci hərbi bazanın taleyi necə olacaq?". "Sasna Tsrer"in Milli Təhlükəsizlik Xidmətinin bütün generallarını və polkovniklərini sistemdən çıxarmaq təklifinə toxunan Arutyunov sual edir ki, bu general və polkovniklərin məşğul olduqları işlər üzrə mütəxəssisləri haradan tapacaqlar: "Bu funksiyaları yerinə yetirmələri üçün bu cür insanları haradan tapacağıq? İndi "Sasna Tsrer" bu həlli təqdim etmir.

Digər tərəfdən, rus ordusu çıxarıldıqdan sonra yeni Qarabağ savaşında Rusiyadan hansı dəstək gözləmək olar? Amma Azərbaycana Türkiyə tam dəstək verəcək. Elə Bakıda da Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi üçün əlimizdən gələni edəcəyik. Bunlar elə-belə deyilmiş sözlər deyil. Azərbaycan və Türkiyənin güclərini birləşdirib Ermənistana qarşı yönəltməsinə qarşı durmaq çətin məsələdir. Xüsusən də Rusiyanın dəstəyinin olmadığı bir vaxtda".

Bütün bunlar bir daha təsdiq edir ki, Azərbaycanın mümkün Qarabağ müharibəsi Ermənistanda ciddi xof yaradıb. Hadisələrin inkişaf axarı isə ermənilərin bu xofunun heç də əbəs olmadığını deməyə əsas verir. Çünki ərazi bütövlüyünü təmin etmək məqsədilə Azərbaycan istənilən vaxt antiterror əməliyyatlarına start verə bilər və bu istiqamətdə bütün şərtlər də artıq Azərbaycanın lehinədir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Ermənistan 500 nəfərlik batalyonla Suriyanın şimalında anti-Türkiyə müharibəsinə qoşuldu - Azərbaycan ərazilərinə Suriyadan ermənilərin yeni köçünə start verilir...

**İşğal altındakı Azərbaycan ərazilərinə kənar yerlərdən ermənilərin köçürülməsi İrəvanın həmişə xüsusi diqqət mərkəzində yer alıb. Bu fonda işğalçı ölkə üçün əsas mənbə qismində son illərdə Suriyanın çıxış etməsi də heç kimə sirr deyil. Məlumdur ki, Ermənistan Suriyadakı humanitar vəziyyətdən istifadə edərək öz məqsədləri naminə hələ də Suriya ermənilərini işğal edilmiş ərazilərə köçürür və orada demoqrafik vəziyyəti dəyişdirməyə çalışır.**

Suryia ermənilərnin bir hissəsi, Ermənistanla yanaşı, Dağlıq Qarabağ ərazisinə də yerləşdirilib. Azərbaycan tərəfi bundan əvvəl dəfələrlə Qarabağa süni şəkildə Suriya ermənilərinin köçürülməsi məsələsini beynəlxalq platformalarda qaldırıb. Amma Ermənistan hələ də beynəlxalq hüquq normalarına zidd olan bu siyasətindən geri çəkilmir.

Bu arada Türkiyə ordusunun Suriyada yeni əməliyyatları fonunda Suriyadan Ermənistana və işğal altındakı Azərbaycan ərazilərinə yeni köçün başlanması istisna olunmur. Xatırladaq ki, Türkiyə Silahlı Qüvvələri və Suriya Milli Ordusunun Suriyanın şimalında həyata keçirdiyi "Sülh çeşməsi" əməliyyatı uğurla davam edir. Əməliyyat çərçivəsində 600-dən çox PKK terrorçusu zərərsizləşdirilib. Tel Abyad və Rəsulaynda şəhər mərkəzlərinə nəzarətin tam təmin edilməsindən sonra nəzərlər Fəratın qərbində yerləşən Münbiçə çevrilib. Prezident Rəcəb Tayyib Ərdoğanın "Qərar verdik, icra mərhələsinə keçdik" sözləri ilə Münbiç əməliyyatının anonsunu verməsindən sonra Münbiçin şimalındakı Cerablusda Türkiyə Silahlı Qüvvələrinin hərəkətliliyi artıb. Çox sayda komanda ilə Türkiyə Silahlı Qüvvələrinin Xüsusi Təyinatlı Birlikləri sayılan "Bordo bereliler" Münbiç ətrafına göndərilib. Bölgədə tanklar və zirehli texnikanın hərəkətliliyi də diqqəti cəlb etməyə başlayıb. Bu texnika arasında hərbi birliklərin çayı keçməsi üçün nəzərdə tutulan səyyar körpülər də var. Suriya Milli Ordusuna bağlı qüvvələrin də Münbiç sərhədində yerləşdirilməsinə başlanıb.



Əməliyyatların genişlənməsi fonunda burada yaşayan ermənilərin bir qisminin ölkəni tərk etməsi gözlənir və İrəvan özü dü bu istifqamətdə çalışır. Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Anna Naqdalyan "Sülh çeşməsi" hərbi əməliyyatı ilə bağlı danışarkən bu xüsusda bildirib ki, lazım gələrsə, Ermənistan Suriyadakı erməniləri təxliyə edəcək: "Etnik ermənilər Qamışlı və ətraf ərazilərində yaşayır. Dəməşqdəki səfirliyimizlə Hələbdəki baş konsulluğumuz Suriyanın şimal-şərqindəki erməni qurumlarla daimi əlaqədədir". Ermənistan parlamentinin Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Mitar Ayrapetyan artıq Tel Abyaddakı erməni ailələrini təxliyə etməyi planlaşdırdıqlarını bildirib. Aydındır ki, həmin ermənilərin bir qisminin məhz Qarabağa gətirilməsi də Ermənistan üçün xüsusi diqqət mərkəzində yer alır.

Bununla yanaşı, Suryiada türk qüvvələrinə qarşı hərbi əməliyyatlarda da ermənilərin fəal iştirak etməsi müşahidə olunur. Məlumatlara görə, artıq Nubar Ozanyan adına Suriya-Erməni Könüllüləri Batalyonu Türkiyə ordusuna qarşı mübarizədə kürdlərə qoşulmaq üçün Tel Temirdən Resulayn şəhərinə yollanıb. Xatırladaq ki, hərbi bölmənin adını daşıdığı Nubar Ozanyan fəal kommunist olub və bir sıra silahlı qarşıdurmalarda iştirak edib. 2017-ci ilin avqustunda öldürülüb. Suriyanın şimalındakı Haseki bölgəsində qurulan və Ermənistanın birbaşa dəstəklədiyi Nubar Ozanyan adını daşıyan erməni yaraqlı qruplaşması son illərdə Türkiyəyə qarşı aktiv fəaliyyəti ilə seçilir. "Ozanyan qrupu" əvvəlcə suriyalı ermənilərdən ibarət olmaqla 90 nəfərlik batalyon kimi formalaşıb. Lakin hazırda qrupun tərkibində 500-dən çox yaraqlı var və briqada şəklində formalaşdırılıb. Qruplaşmanın Türkiyə ilə sərhəd Qamışlı, Rəsulayn, Amude, Tel Abyad, Aynularab bölgələrində mövqe tutduğu bildirilir. Həmin qruplaşma erməni terror təşkilatı ASALA-nın davamçısı hesab edilir. Suriya müharibəsi zamanı uzun illərdir bu bölgədə yerləşdiirlmiş ermənilər qruplaşmaya daxil olub. Minlərlə suriyalı erməni isə Ermənistana köçüb, onlardan bir hissəsi Azərbaycanın işğal altındakı ərazilərində yerləşdirilib. Suriyada yaradılan erməni qruplaşmasına Ermənistandan hərbi və maddi dəstək verilir. Ermənistan öz hərbi təlimatçılarını qruplaşmaya təlim keçmək üçün müxtəlif vaxtlarda bölgəyə göndərib. İndi həmin qruplaşmadan yenidən Türkiyəyə qarşı istfiadə olunur. Amma qruplaşmanın Türkiyə ordusu qarşısında tab gətirməyərək Ermənistana və Qarabağa qaçacağı da əsas gözləntilər sırasındadır.

Burada onu da bildirək ki, Ermənistan suriyalı erməniləri Azərbaycanın işğal olunmuş ərazilərində yerləşdirməklə beynəlxalq hüquq normalarını kobud şəkildə pozur. Bu məsələdə Ermənistanın baş naziri Nikol Paşinyanın isə xüsusi marağı var. O da sələfləri kimi Suriyada döyüşən ermənilərin Qarabağda məskunlaşmasını planlaşdırır. Eyni zamanda, burada əsas məqsədlərdən biri Suriyadakı ermənilərin dəstəyini almaqdır. Xüsusilə də Hələb erməniləri Yaxın Şərq erməni diasporları içərisində əhəmiyyətli mövqe tutur. Hətta çox ədəbiyyatda "Suriya erməni diasporu" yerinə "Hələb erməni diasporu" ifadəsi işlədilir. Paşinyan bu erməni diasporlunun dəstəyini qazanmaq üçün Suriya ermənilərinin bir qismini Ermənistana və Qarabağa köçürməyə hazırdır.

Xatırladaq ki, bundan əvvəl də ATƏT-in Minsk Qrupu Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz məskunlaşma faktlarını araşdırmaq üçün dəfələrlə monitorinq keçirib. Monitorinqlər zamanı Dağlıq Qarabağ və işğal olunmuş digər Azərbaycan torpaqlarında ermənilər tərəfindən qanunsuz məskunlaşma siyasəti aparıldığı müəyyənləşib. Amma hazırda Ermənistan belə monitorinqlərin aparılmasına imkan vermir. Bunun belə, görünən odur ki, zəbt edilmiş Azərbaycan ərazilərinə Suriyadan ermənilərin yeni köçünə start verilir.

***Tahir TAĞIYEV***

# Azərbaycanda siyahıyaalmanın daha təkmil nəticələnməsi üçün zəruri dəyişiklik qərarı verildi

**Azərbaycanda hər on ildən bir əhalini siyahıyaalma prosesi həyata keçirilir. Bu il oktyabrın 1-dən başlanan əhalini siyahıyaalma prosesinin ilkin mərhələsi başa çatsa da, işlər hələ tam olaraq yekunlaşmayıb. Məlumatlara görə, ölkə vətəndaşlarını siyahıyaalma prosesinin oktyabrın 10-da başa çatması nəzərdə tutulsa da, bir sıra səbəblərdən tədbirin vaxtı oktyabrın 15-ə qədər uzadılıb.**



## *Vüqar Rəhimzadə: "Əhalini siyahıyaalmanın vaxtının uzadılması daha səhih məlumatlar əldə edilməsinə böyük təkan verəcək"*

Dövlət Statistika Komitəsinin məlumatına görə, buna səbəb sayıcıların vətəndaşların ünvanlarına getmələrinə baxmayaraq, ev təsərrüfatının başçısı və ya üzvləri ilə görüşə bilməməsidir.

Dövlət Statistika Komitəsinin mətbuat katibi Elməddin Quliyevin verdiyi məlumata görə, belə olan halda, siyahıyaalmanın aparılması qaydalarına uyğun olaraq, əvvəlcədən müəyyənləşdirildiyi kimi, sayıcılar tərəfindən həmin şəxslər üçün "Evdə çətin tapılan şəxslərə məktub" adlı sənəd tərtib edilir və ev təsərrüfatının yaşadığı ünvan üzrə giriş qapısına bərkidilir. Həmin bildirişdə qeyd olunan ünvanda sorğunun keçirilməsi üçün münasib vaxtın təyin edilməsi və sayıcı ilə əlaqə saxlanıb bu barədə məlumat verilməsi xahiş edilir.

O vurğulayıb ki, əhalinin bir hissəsi, hətta işsiz təbəqə, gününü evdə keçirən təqaüdçülər belə onların qapılarının döyülmədiyini, siyahıya alınmadıqlarını bildirirlər. Əhalinin işlək təbəqəsi isə evdə olmadıqlarına görə onların qapılarına heç bir bildiriş kağızının qoyulmadığını bildiriblər.

Bəzi sakinlər isə onlara mobil və stasionar telefonla zəng edildiyini, sadəcə olaraq ad, soyad, ata adı və təvəllüdlə bağlı sualların verildiyini söyləyiblər.

Qeyd edək ki, bir sıra vətəndaşlar sayıcıların onların ünvanına baş çəkmədiklərini, ümumiyyətlə, heç bir vasitə ilə əlaqə saxlamadıqlarını bildirirlər. Bu məsələyə də E.Quliyev aydınlıq gətirib. O, mətbuata açıqlamasında "Bütün bunlar iddiadır. Kiminsə konkret faktı varsa, desin, bizim "Qaynar xətt"ə (510 07 89; 539 54 44; 539 80 44) müraciət etsinlər, biz də bunu araşdıraq. Sayıcılar həmin ünvana gələrək siyahıyaalmanı həyata keçirsinlər" - deyə bildirib.

Telefonla siyahıyaalmanın düzgün olub-olmamasına gəlincə, E.Quliyev bildirib ki, belə bir addımın atılması əhalini siyahıyaalma ilə bağlı qaydalara ziddir: "Bununla bağlı konkret fakt varsa, bu zaman yenə də bizim "Qaynar xətt"ə zəng edib məlumat versinlər".

*"...daha üstün nəticələr əldə edilməsinə faydası böyükdür"*

Qeyd edək ki, siyahıyaalma üçün oktyabrın 10-u son gün olsa da, bu günlərin sayı bir qədər də artırılıb. Oktyabrın 15-dək evdə tapılmayan şəxslərin ünvanlarına bir daha baş çəkiləcək.

"İki Sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə "Bakı-Xəbər"ə bildirdi ki, vətəndaşları siyahıyaalma prosesinin vaxtının bir neçə gün uzadılması müsbət haldır. O hesab edir ki, siyahıyaalmanın vaxtının bir neçə gün uzadılması ölkə əhalisinin tam olaraq siyahıya alınmasına və bu prosesdən heç bir vətəndaşın kənarda qalmamasına səbəb olacaq. "Ölkəmizdə siyahıyaalma prosesi hər on ildən bir keçirilir. Bunun nəticəsində də ölkə əhalisinin sayı, cinsi, sosial vəziyyəti, digər göstəriciləri rəsmi şəkildə müəyyən edilir. Hesab edirəm ki, bu, ölkədə əhali sayının, bütövlükdə, ölkənin dinamik inkişafını ifadə edən bir prosesdir. Şəxsən bizim evə gəldilər və bütün ailə üzvlərimiz siyahıya alındı. Əhalini siyahıyaalmanın vaxtının uzadılması təbiidir. Fikrimcə, əvvəlcə müəyyən edilmiş 10 gün ərzində bütün vətəndaşları siyahıyaalma ona görə mümkün olmayıb ki, kimsə evdə olmayıb, başqa birisi məzuniyyətdə olub və s.

Əhalini siyahıyaalmanın vaxtının uzadılması dəqiqləşdirməyə, daha səhih məlumatlar əldə edilməsinə böyük təkan verəcək. Bu prosesin uzadılmasının əhalini siyahıyaalmada daha üstün nəticələr əldə edilməsinə faydası böyükdür" - deyə V.Rəhimzadə qeyd etdi.

***İradə SARIYEVA***

# Saxta əlillik alanlar arasında 18 yaşa çatmayanlar üstünlük təşkil edir - niyə...

**"Saxta əlillik dərəcəsi almağa cəhd edənlər arasında 18 yaşına çatmayan vətəndaşlar çoxluq təşkil edir. Bu daha çox oğlanların əsgərlikdən yayınmasına olan cəhdlərdir. Orta və yuxarı yaş kateqoriyasında olanlar isə daha tez pensiyaya çıxmaq üçün bu yola əl atırlar.**



## *Mayis Əliyev: "Bəzi gənclər hərbi xidmətə getməmək üçün saxta yolla əlillik dərəcəsi alırlar"*

Çünki əlilliyi olan şəxslər üçün pensiyaya çıxma tələbləri daha asandır". Bunu jurnalistlərə açıqlamasında əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev deyib.

O qeyd edib ki, saxta əlillik dərəcəsi almaq istəyən şəxslərin kateqoriyası müxtəlifdir. Burada sağlamlıq imkanları məhdud olan uşaq qismində əlillik dərəcəsi almaq istəyənlər, orta və yuxarı yaş kateqoriyasında olan şəxslər də var: "Bu kimi halların qarşısını almaq üçün monitorinqlər davam edir. Əsasən risq kriteriyaları üzrə orta və yuxarı yaşda olan şəxslərdə əlilliyə görə yüksək pensiya alanlar çərçivəsində saxtakarlıqlar daha tez aşkar edilir. Ümumilikdə, monitorinqlər bütün istiqamətləri əhatə edəcək və daimi elektron monitorinqə çevriləcək. Avtomatlaşmanın ən böyük önəmi də bunun üçün lazımdır ki, ölkə üzrə aylıq əsasda dövlətdən vəsait alan 2 milyon 800 min insanın hər birinin məlumatı elektronlaşdırılaraq vahid portala yerləşdiriləcək".

Mövzu ilə əlaqədar ekspertlərə müraciət etdik.

"Sosial Hüquqların Araşdırılması" İctimai Birliyinin sədri Mayis Əliyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, 18 yaşına çatmayan şəxslərin əlillik statusu almaq istəmələrinin müxtəlif səbəbləri var: "İlk olaraq bildirim ki, saxta əlilliyin alınmasında əsas məqsəd sosial faktorla bağlıdır. Məlumdur ki, əlillər üçün nəzərdə tutulan müavinətin həcmi artıb. Bəzi şəxslər artıq pul almaq üçün saxta yolla əlillik almağa üstünlük verirlər.

*"Tək saxta yolla əlillik alan şəxs deyil, eyni zamanda, bu işdə ona köməklik göstərən hər bir şəxs qanunvericiliyin tələbinə uyğun olaraq cəzalandırılmalıdır"*

Digər səbəb gənclərin hərbi xidmətdən yayınması ilə bağlıdır. Təəssüf ki, bəzi gənclər hərbi xidmətə getməmək üçün saxta yolla əlillik dərəcəsi alırlar. Bu işlə məşğul olanlar aparılan araşdırmalar zamanı müəyyən olunub və onlar barəsində lazımi ölçü götürülüb. Kimsə saxta yolla əlillik dərəcəsi alıbsa, onlar müəyyən olunaraq təyinatı ləğv olunub. Bununla yanaşı, saxta yolla əlillik alan şəxslərə ödənişlər də geri qaytarılır".

Həmsöhbətimiz onu da vurğuladı ki, tək saxta yolla əlillik alan şəxs deyil, eyni zamanda, bu işdə ona köməklik göstərən hər bir şəxs qanunvericiliyin tələbinə uyğun olaraq cəzalandırılmalıdır.

***Günel CƏLİLOVA***

# Övladlığa götürmə müraciətləri DOST mərkəzlərinə verildi - əyriliklərin yolu nə qədər bağlanır...

**Azərbaycanda övladlığa götürmə sahəsində yeniliklər baş verməkdədir. Əvvəlki dönəmlərdə ciddi problemlərlə, qanun pozuntuları ilə müşayiət edilən bu prosesdə artıq şəffaflaşma həyata keçiriləcək. Belə ki, artıq Azərbaycanda övladlığa götürmə ilə bağlı müraciətlər DOST Mərkəzində də qəbul ediləcək.**

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev mətbuata bildirib ki, Azərbaycanda övladlığa götürmə ilə bağlı müraciətlər həm DOST Mərkəzində, həm də elektron portal üzərindən qəbul ediləcək. S.Babayevin sözlərinə görə, övladlığa götürmə ilə bağlı aktiv işlər aparılır: "Məsələ ilə bağlı qanunvericiliyə edilən dəyişikliklər Milli Məclisə təqdim olunub. Yaxın günlərdə dəyişikliklərin plenar iclaslarda qəbul edilməsi gözlənir".

Nazir bildirib ki, noyabrın 1-dən etibarən övladlığa götürmə sahəsində fəaliyyətin istiqamətləndirilməsi, müraciətlərin qəbul edilməsi və müvafiq bazanın formalaşdırılması üçün elektron altsistem istifadəyə veriləcək: "Əsas şərt övladlığa verilən uşağın psixoloji ehtiyaclarından irəli gələrək düzgün ailə seçilməsidir. Ailənin sosial, mədəni, maddi olaraq bu övladı yetişdirmək, onu böyütmək qabiliyyətinin olmasını düzgün qiymətləndirmək lazımdır".

Övladlığa verilmə prosesinin də dəyişdiyinə diqqət çəkən S.Babayev qeyd edib ki, qısa müddətdə qiymətləndirmə aparılmayacaq və 6 aya qədər prosedur dövrü olacaq: "Sonrakı proses ailə ilə uşağın tanışlığı, onların neytral ərazidə görüşlərinin təşkil olunması, ekspertlərin iştirakı əsasında onların ünsiyyətinə nəzarət edilməsi, qısa müddətdə və sonradan daimi şəkildə ailəyə verilməsindən ibarətdir".

Övladlığa götürmə prosesinin DOST mərkəzlərində həyata keçirilməsinin bu sahədə böyük dönüş yaradacağını qeyd edən tanınmış hüquqşünas Əliməmməd Nuriyev "Bakı-Xəbər"ə bildirdi ki, bir il əvvəl bu sahədə qanunvericiliyə dəyişikliklər edilib və övladladlığa götürmə sahəsi də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətlərinə verilib: "Əvvəlki dövrdə isə övladlığa götürmə məsələsi Səhiyyə Nazirliyinin səlahiyyətlərinə aid idi. Bununla bağlı Bakı Şəhər Səhiyyə Baş İdarəsində yaradılan komissiya tərəfindən bu proses həyata keçirilirdi. Yeri gəlmişkən qeyd edim ki, bu proseslə bağlı müxtəlif fikirlər səsləndirilir, komissiyada qeyri-şəffaflığın olması, bir sıra nöqsanların mövcudluğu qeyd edilirdi. Bir sıra hallarda isə bu proseslərin həyata keçirilməsi zamanı qeyri-rəsmi münasibətlərin, sövdələşmələrin olduğu haqda da danışılırdı. Bir sözlə, bu komissiya yetərli qədər özünü doğrultmurdu, sonra bu komissiya fəaliyyət göstərmədi. Bəzi hallarda uşaqlar övladlığa növbədənkənar verilirdi, uşaqların sövdələşmə ilə övladlığa verilməsi, komissiya sədrinin bununla bağlı özbaşına qərar qəbul etməsi və sair barədə də fikirlər də mövcud idi. Bu barədə geniş danışmaq istəmirəm. İndi əsas odur ki, bu prosesin həyata keçirilməsi Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətlərinə verilib. DOST mərkəzlərində də övladlığa götürmə ilə bağlı xüsusi struktur yaradılıb və bu strukturun rəhbəri də təyin olunub. O çox dürüst, təmiz bir insandır, sosial işi incəliklərinə qədər bilən bir şəxsdir, bu proseslə də bağlı çox ciddi bir mütəxəssis hesab olunur. Qurumun rəhbərinin kimliyi həmin qurumun fəaliyyətinə də təsir edir. Bilirsiniz ki, bizdə qurumların fəaliyyətində orada kimin rəhbər olması vacibdir. Ümumiyyətlə, DOST Mərkəzinin özünün fəlsəfəsi tamamilə şəffaflığa söykənir. Bilirsiniz ki, bu, Birinci vitse-prezidentimiz Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılmış bir mərkəzdir. O həm quruluş, həm də dizayn, həm də mahiyyət etibarilə çox şəffaf bir qurumdur. Artıq müxtəlif xidmət sahələri üzrə xeyli sayda vətəndaşa xidmət göstərib və vətəndaş məmnunluğunu təmin edib. Orada 148-ə qədər xidmət növü var. Hesab edirəm ki, DOST Mərkəzində övladlığa götürmə ilə bağlı struktur da öz fəaliyyətini müəyyən edilmiş standartlar əsasında quracaq. Buna əminəm. DOST Mərkəzi vasitəsilə uşaqların övladlığa verilməsi prosesi başlandıqdan sonra biz uşaqların uşaq evlərindən ailələrə verilməsinə nail olacağıq. Yəni bu proses başlandıqdan sonra uşaqlar uşaq evlərində qalmayacaq, onlar ailələrdə böyüyəcək. Bu məsələdə övladlığa götürmə ən mühüm alətlərdən biridir. Ən əsası odur ki, uşaqlarımız yaxşı ailələrə düşsünlər və sağlam, xoşbəxt və ləyaqətli böyümək imkanlarına malik olsunlar. Yaxşı təhsil alsınlar və cəmiyyət üçün yararlı olsunlar. Fikrimcə, DOST Mərkəzi bu standartlara uyğun fəaliyyətini quracaq və bunun nəticəsində də övladlığa götürmə prosesi daha şəffaf olacaq. Çox yaxşı olardı ki, bu prosesə vətəndaş cəmiyyəti institutları da, media da cəlb edilsin. Çünki bu vacibdir. Düzdür, övladlığa götürmə xüsusi bir prosedurdur, burada mütləq konfedisiallıq qorunub saxlanmalıdır. Amma, bütövlükdə, proses şəffaf olmalıdır. Eyni zamanda, bu sahəyə ciddi nəzarət olmalıdır ki, ayrı-ayrı şəxslərə övladlığa verilən uşaqların həyatı, yaşamı təmin olunsun, onlara yüksək tərbiyə, təhsil verilsin".

***Əliməmməd Nuriyev:** "DOST Mərkəzi bu standartlara uyğun fəaliyyətini quracaq və bunun nəticəsində də övladlığa götürmə prosesi daha şəffaf olacaq"*




*"...biz uşaqların uşaq evlərindən ailələrə verilməsinə nail olacağıq"*

Ə.Nuriyev hesab edir ki, DOST Mərkəzi vasitəsilə həyata keçirilən övladlığa götürmə prosesinə ciddi nəzarət olacaq və bu da o uşaqların xoşbəxt gələcəyinin təmin olunmasına şərait yaradacaq. Müsahibimiz onu da qeyd etdi ki, sağlam uşaqlarla yanaşı, fiziki cəhətdən qüsurlu olan uşaqların da mərkəz tərəfindən ailələrə övladlığa verilməsi məsələsi baş verəcək. O hesab edir ki, artıq ailələr bu cür uşaqları da övladlığa qəbul etməkdən çəkinmirlər. Bunun da həmin uşaqların gələcəkdə daha yüksək səviyyədə inkişaf etməsinə, xoşbəxt böyüməsinə şərait yaradacağını deyən Ə.Nuriyev hesab edir ki, bütövlükdə, bu prosesin DOST Mərkəzi tərəfindən həyata keçirilməsi çox müsbətdir.

***İradə SARIYEVA***

# Banklar müştərilərin evli-subaylığından əlavə, boşanmış-dul olması ilə də maraqlanmağa başlayıblar...

**Ruslan Atakişiyev:** *"Bankların müştəridən boşanmış və ya dul olmasını soruşmaqda məqsədi özünü risqlərdən qorumaqdır"*

**Hazırda Azərbaycanda fəaliyyət göstərən kommersiya bankları əhaliyə kredit verməkdə, belə demək mümkündürsə, xəsislik edirlər. Bu səbəbdən də kredit götürənlərin sayı da xeyli dərəcədə azalıb.**

*"Boşanmış və ya dul olan şəxslər ilk ailəsindən olan uşaqlara aliment ödədiyi üçün, bu hal onların aylıq kredit ödənişinə təsir edəcək"*

Kredit götürmək istəyənləri banklardan uzaqlaşdıran səbəblər sırasında kredit faizlərinin yüksək olması ilə yanaşı, kredit götürən şəxsin ailə vəziyyəti haqqında sorğunun aparılmasıdır.

Bəllidir ki, əvvəllər banklar kredit götürən şəxsin ailə vəziyyətinin necə olması haqqında bölmədə evli və ya subay xanasını seçirdilər. Ancaq indi ailə vəziyyəti haqqında bölmədə evli, subay qeyd etməklə yanaşı, boşanmış və dul xanası da qeyd olunmalıdır.

Məsələ ilə bağlı fikir bildirən iqtisadçı-ekspert Ruslan Atakişiyev "Bakı-Xəbər"ə açıqlamasında qeyd etdi ki, ötən ilin sonunda banklarla bağlı yeni qərar qəbul olunub. Həmin qərara əsasən, banklar öz müştərilərinə kredit verən zaman məsuliyyətin əksər hissəsi kredit götürənə deyil, bankların üzərinə düşür: "Bu səbəbdən də banklar hər hansı risqi nəzərə alıb, ona uyğun kredit verirlər. Yeni qərarda qeyd olunur ki, banklar öz müştərilərini seçərkən onu dərindən tanımalıdırlar. Kredit götürən şəxsin ailə vəziyyətini, işləməsini banklar araşdırmalıdırlar.

Ötən illərdən fərqli olaraq, banklar kredit götürən şəxsin ailə vəziyyətini daha dərindən araşdırırlar. Kredit götürən şəxsin evli, subay olması ilə yanaşı, onun boşanmış və ya dul olması da bankları maraqlandırır. Məlumdur ki, boşanmış şəxs keçmiş ailəsi üzərində məsuliyyət daşıyır. Boşanmış şəxs ilk ailəsindən olan uşaqlara aliment ödəməlidir. Kredit götürmək istəyən şəxsin əlavə xərcləmələrinin olması onun aylıq ödənişinə də təsir edir. Analoji hal dul şəxslərə də şamil olunur".




**Həmsöhbətimizin sözlərinə görə, bankların müştəridən boşanmış və ya dul olmasını soruşmaqda məqsədi özünü risqlərdən qorumaqdır: "Kredit götürmək istəyənlər bunu şəxsi həyata müdaxilə kimi anlamasın".**

*Günel CƏLİLOVA*

# MDB dövlətləri öz milli valyutaları ilə ticarətə keçsə...

**Fikrət Yusifov:** *"MDB ölkələrində bunun daha çox zamana ehtiyacı var"*

**MDB dövlət başçılarının Türkmənistanda keçirilən zirvə görüşündə Rusiya prezidenti Vladimir Putin postsovet məkanını valyuta risqlərindən qorumaq üçün tədbirlər görməyi, MDB-də dollardan imtina etməyi təklif edib.**

*"Ortaya elə bir mexanizm qoyulmalıdır ki, onun tətbiqindən bir ölkənin iqtisadiyyatının qazanıb, digərinin itkiyə məruz qalmasına yol verilməsin"*

Rusiya prezidentinin sözlərinə görə, MDB ölkələri ticarət müharibələri şəraitində özlərini valyuta risqlərindən qorumalıdır, perspektivdə vahid maliyyə bazarının formalaşması barədə düşünməyə dəyər. Putin hesab edir ki, burada vacib məqam milli valyutalarda hesablaşmalardır: "Mən bu gün bütün dünyanın qarşılaşdığı problemi nəzərdə tuturam. Biz bunu görürük. Bunun nəticələri ticarət müharibələri, müxtəlif məhdudiyyətlərdir. Və biz əlbəttə ki, valyuta risqlərinə qarşı özümüzə zəmanət verməliyik. Valyuta sahəsində əməkdaşlığı inkişaf etdirmək, valyuta siyasətini razılaşdırmaq lazımdır. Əgər biz nə vaxtsa buna gedəsi olsaq, onda ümumi maliyyə bazarının formalaşması barədə də danışa bilərik. Əminəm ki, bu mütləq bizim ümumi rəqabət qabiliyyətimizə fayda verəcək". Ümumilikdə, Putinin bu təşəbbüsü yeni deyil. 2015-ci ildən süzügedən təklif səslənir. Rusiya dövlət başçısının dollardan imtina təklifi postsovet ölkələri arasında qarşılıqlı ticarət əlaqələri, iqtisadi münasibətlərdə keçərlidir. MDB məkanında qarşılıqlı mal mübadiləsində milli valyutalardan istifadə etmək mümkündür. Bir şərtlə ki, dominant rolunda heç bir valyuta çıxış etməsin. Maraqlıdır, bəs ekspertlər Putinin bu təklifini necə dəyərləndirir? MDB çərçivəsində bu nə dərəcədə mümkündür?

Sözügedən məsələ ilə bağlı fikirlərini bakixeber.com-la bölüşən iqtisad-elmləri doktoru Fikrət Yusifovun sözlərinə görə, bunu reallaşdırmaq çətin məsələdir: "Bu gün beynəlxalq hesablaşmaların 60 faizə qədərinin dollarla həyata keçirilməsi və ölkələrin valyuta ehtiyatlarının 63 faizdən çoxunun dollarda saxlanması bu valyutanın dünya maliyyə sistemindəki hegemonluğunun səviyyəsindən xəbər verir. Düzdür, 1971-ci ildən sonra beynəlxalq hesablaşmalarda ingilis funt sterlinqindən, alman markasından, yapon ienindən və başqa digər valyutalardan da istifadə olunur. Lakin bir böyük həqiqət bundan ibarətdir ki, bu gün ABŞ dolları tək bir ölkənin valyutası deyil, o eyni zamanda başqa ölkələrin valyutalarının dəyərini müəyyən edən bir tərəzidir. Dünya iqtisadiyyatının ?-nə sahib olan bir ölkənin milli valyutasının likvidliyi isə dünyanın bütün ölkələrində mövcuddur. Ona görə də ABŞ dollarına olan "sevgidən" imtina etmək yaxın gələcəkdə heç bir ölkənin, xüsusilə də inkişaf etməkdə olan ölkələrin maliyyə sisteminin ondan asılılığını aradan qaldıra bilməyəcək.

MDB ölkələrində bunun daha çox zamana ehtiyacı var. Belə bir mexanizmin işlənib hazırlanması və tətbiqi, təbii ki, uzun bir prosesdir. Burada atılacaq hər addım hərtərəfli ölçülüb-biçilməlidir. Ortaya elə bir mexanizm qoyulmalıdır ki, onun tətbiqindən bir ölkənin iqtisadiyyatının qazanıb, digərinin itkiyə məruz qalmasına yol verilməsin".

*Vidadi ORDAHALLI*

**Uşağını ana südü ilə qidalandıran analarla yanaşı, bunun əksini edənlər də var. Bəzən isə analar körpələrinə ana südü ilə yanaşı, uşaq qidalarından da verirlər. Bu gün satışda müxtəlif növ və qiymətə uşaq qidaları mövcuddur.**

# "Nutrilak" uşaq qidasından nə çıxdı?




***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi:** "Nutrilak" uşaq qidasından qurd çıxması haqqında məlumat qeydə alındıqdan dərhal sonra AQTA-da aidiyyəti üzrə araşdırmalara başlanıb"*

***Eyyub Hüseynov:** "Körpə qidaları ilə bağlı Azərbaycanda problem çoxdur"*

Bu qidalar barədə zaman-zaman müxtəlif fikirlər səsləndirilir, onların uşaqlar üçün zərərli olduğu deyilir. Hətta bir sıra uşaq qidaları da var ki, onların tərkibində soya olduğu, bunun isə GMO komponentinə aidliyi deyilir ki, bu da körpə uşağın orqanizmi üçün təhlükəli hesab edilir.

Satışda olan uşaq qidaları arasında "Nutrilak" adlı qida məhsulu var. Bu günlərdə sosial şəbəkədə adıçəkilən uşaq qidasından qurd çıxması haqqında məlumat yayıldı.

Şikayətçi Asəf Abbasov qeyd edir ki, o, 9 oktyabr tarixində Biləcəridə yerləşən "Şəfa" aptekindən uşaq yeməyi olan "Nutrilak" alıb. Bir neçə dəfə uşağa həmin qidadan verildikdən sonra, qutunun içərisində qurd olduğu müəyyən olunub. Ata hətta bu səbəbdən övladının dərisinin səpdiyini də iddia edib: "Məhsulun istifadə müddəti də bitməyib. Aptekə müraciət etmişəm, dedilər ki, onlarlıq deyil. Mən də Səhiyyə Nazirliyinə müraciət edirəm ki, apteklərdə satılan bu kimi məhsulların mənşəyini araşdırsın".

Məsələ ilə bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinə (AQTA) müraciət etdik. Agentlikdən bildirildi ki, araşdırmaların nəticəsi barədə ictimaiyyətə məlumat veriləcək: "Qeyd etdiyiniz məsələ ilə bağlı vətəndaş Qida Təhlükəsizliyi Agentliyinin 1003 "Çağrı Mərkəzi"nə məlumat verib. Məlumat qeydə alındıqdan dərhal sonra Qida Təhlükəsizliyi Agentliyində aidiyyəti üzrə araşdırmalara başlanıb. Araşdırmaların nəticəsində qanunvericiliyin tələbləri çərçivəsində tədbirlər görüləcək. Nəticələr barədə ictimaiyyətə məlumat veriləcək. Agentlik vətəndaşlardan xahiş edir ki, qida məhsullarının, xüsusilə uşaq qidalarının təhlükəsizliyi və keyfiyyəti ilə bağlı şübhələri olarsa, bu sahədə neqativ hallarla rastlaşsalar, müəssisənin və məhsulun adı, ünvanı, istehsal tarixi və s. konkret məlumatları qeyd etməklə agentliyin 1003 "qaynar xətt"inə zəng edərək məlumat versinlər".

Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov bildirdi ki, körpə qidaları ilə bağlı Azərbaycanda problem çoxdur: "Ümumdünya Səhiyyə Təşkilatının uşaq qidaları ilə bağlı konvensiyası var. Qanuna görə, körpə qidaları çox reklam olunmamalı, satışı konkret yerlərdə, saxlanma rejimi 20 dərəcədən aşağı temperaturda olmalıdır. Azərbaycanda isə bu qanunlara əməl edilmir. Azərbaycanda uşaq qidalarının distribütorları birbaşa pediatrlarla iş qurur. Bu da qanunsuzdur. Bizə analar şikayət edirlər ki, süni uşaq qidalarının distribütorları onlara zəng edib satdıqları uşaq qidalarını təklif edirlər. Eyni zamanda, uşaq dünyaya gələn kimi uşaqlara xəstəxanalarda artıq süni qida verilir. Bu barədə çox sayda şikayət alırıq".

**Günel CƏLİLOVA**

---

**Bütün xoşagəlməz əməllər şou-biznesçilərdən çıxır. Bu, birmənalı olaraq, belədir. Onlar özlərini gündəmdə saxlamaq, daim maqazin proqramlarının diqqətində olmaq üçün ən ağlagəlməz hərəkətlər sərgiləyir, açıqlamalar verirlər. Heç şübhəsiz ki, onların hərəkət və sözlərinin əsas hissəsini kameraya oynamaq təşkil edir.**

# Şou müğənnilər indi də bir-birinə uşaq doğub bağışlamaq söhbətlərinə başlayıblar...



***Əziz Qəmbərov:** "...onların çoxu üçün artıq övlad da, mənəvi dəyərlər də yalnız özlərini reklam etmək üçün alətə çevrilib"*

aKamera qarşısına çıxan kimi ya qarşılıqlı olaraq bir-birini ittiham və təhqir edir, ya bir-birinin acığına sponsorlarından, bahalı geyimlərindən, avtomobillərindən və villalarından danışırlar.

İndi isə şou-biznesdə yeni tərzlər gündəmə gəlməyə başlayıb. Bəzi şou müğənniləri dünyaya uşaq gətirərək öz övladsız həmkarlarına bağışlayacaqlarını elan edirlər. Bir ananın dünyaya gətirdiyi körpəni hədiyyə etməsi nə dərəcədə düzgündür deyə bilmərik, amma bunu şouya çevirmək özü müsbət hal deyil. Çox təəssüf ki, şou müğənniləri övladlarını da şou predmetinə çevirirlər.

Elə də populyar olmayan şou müğənnisi Dəniz birbaşa efirdən hamilə olduğunu və hamiləliyinin üçüncü ayını yaşadığını, gələcək körpəsini həmkarı Mənzurə Musayevaya hədiyyə edəcəyini elan edib. Şou müğənnisinin bu açıqlaması ictimaiyyətin təəccübünə səbəb olub. O hətta deyib ki, artıq bununla bağlı Mənzurə xanımla danışıb, sövdələşib.

Azərbaycanda efirdə hələ doğulmamış uşağın ana tərəfindən başqasına hədiyyə veriləcəyinin səsləndirilməsi həqiqətən də böyük səs-küy yaradıb. Dənizin Mənzurə ilə bu barədə sövdələşməsinin həm tamaşaçılar, həm də sosial şəbəkə istifadəçiləri tərəfindən sərt qarşılanması təbiidir. Çünki indiyə qədər heç bir ana milyonların gözü qarşısında övladını kiməsə hədiyyə edəcəyini açıqlamayıb və bunun ətrafında özünü gündəmə gətirməyib. Dəniz unudur ki, uşaq əmlak deyil və onu heç kəsə bağışlamaq, satmaq olmaz. Əslində, onun belə bir açıqlama verməsi mənəvi və hüquqi baxımdan düzgün deyil. Artıq cəmiyyətdə və sosial şəbəkədə belə bir fikir formalaşıb ki, Dəniz öz gələcək övladını hədiyyə etmir, satır. Bu, ümumiyyətlə, bir anaya yaraşmayan bir hərəkətdir. Hətta ekspertlər hesab edirlər ki, bir uşağın digər bir ailəyə hədiyyə verilməsi zorakılığın ən ağır formasıdır. Uşağı hədiyyə etməklə satmağın heç bir fərqi olmadığı məlumdur və bir şou müğənnisinin bu addımı yalnız sərt şəkildə qınana bilər.

Hüquqşünaslar hesab edirlər ki, valideyn tərəfindən uşağın başqasına hədiyyə edilməsi cinayət tərkibli məsələdir və bu, hüquq müstəvisində öz həllini tapmalıdır. Şou müğənnilərinin diqqəti cəlb etmək üçün istifadə etdikləri bu kimi tryuklar onların gözdən düşməsinə, cəmiyyət tərəfindən sərt şəkildə tənqid edilməsinə səbəb olur. Müğənni Dəniz öz gələcək övladından imtina etmək istəyirsə, bunun üçün dövlətin müvafiq qanunlarına uyğun şəkildə addım atmalıdır.

Tanınmış hüquqşünas Əziz Qəmbərov bizimlə söhbətində bildirdi ki, şou-biznesçilərin bu cür çiy açıqlamaları onlar üçün cinayət məsuliyyəti yaradır.

*"Bir ananın öz gələcək övladından alət kimi istifadə etməsi, "doğulandan sonra onu hədiyyə edəcəyəm" deməklə özünü müvəqqəti olaraq gündəmdə saxlaması qəbuledilməzdir"*

"Ümumiyyətlə, şou-biznesçilərin qanunazidd əməlləri saysız-hesabsızdır. Onlar arasında dünyaya qanunsuz övlad gətirməkdən tutmuş, gələcək övladını kimlərəsə bağışlamağa qədər bütün əməllər var. Azərbaycanda uşağın övladlığa verilməsi qanunla tənzimlənir və bunun üçün xüsusi prosedur qaydaları müəyyən edilib. Uşaq canlıdır, bizim gələcəyimizdir, onu necə götürüb başqasına hədiyyə edə bilərik? Məncə, hədiyyə etməklə satmaq arasında elə də böyük fərq yoxdur.

Uşaq nə əmlakdır, nə puldur ki, götürüb onu istədiyin adama hədiyyə edəsən. Deyirlər ki, artıq biz sövdələşmişik. Yaxşı ki, Dəniz demir ki, artıq uşağın behini də almışam... Bilirsiniz, bu həm hüquqi, həm də mənəvi baxımdan qəbuledilən deyil. Doğrudur, bir ailənin öv övladını övladı olmayan ailəyə verməsi halları olub, amma bu ya anonim şəkildə baş verib, ya da dövlətin qanunları çərçivəsində. Bir uşaq başqa bir ailəyə övladlığa verilərsə, burada anonimliyin qorunması vacibdir. Şou-müğənnilərinə gəlincə isə, onların çoxu üçün artıq övlad da, mənəvi dəyərlər də yalnız özlərini reklam etmək üçün alətə çevrilib. Bir ananın öz gələcək övladından alət kimi istifadə etməsi, "doğulandan sonra onu hədiyyə edəcəyəm" deməklə özünü müvəqqəti olaraq gündəmdə saxlaması qəbuledilməzdir" - deyə hüquqşünas bildirdi.

**Leyla QARAXANLI**

**Bu dünyaya gələnin bir gün bu dünyadan gedəcəyi yaranışdan üzü bəri insanlığa məlumdur. Lakin bu zaman kəsiyində heç bir Allah bəndəsi bu həqiqətlə barışa bilmir. Daha doğrusu, hər birimiz üçün barışmaq çətindir. Hər bir insanın itkisi ürəkləri göynədir, doğmalarına və yaxınlarına acı-ağrı, nisgil gətirir.**

# Dünyadan çox gözəl bir insan getdi



**Sona ÇƏRKƏZ**
*Bakı Dövlət Universitetinin baş müəllimi, Azərbaycan Yazıçılar Birliyininin üzvü, "Qızıl qələm" media mükafatçısı*



O da ola bu həyatın çətin yollarından, sınaqlarından üzüağ çıxan, bütün nəcib insani keyfiyyətləri özündə cəm edən, qəlbində mərhəmət, ləyaqət, sonsuz sevgi gəzdirən, evinə, ocağına bağlı olaraq şərəfli ömür yaşayan və hər kəsin ürəyində özünə taxt-tac qura bilən ana itkisi. Analar ölmür, onlar cismən ayrılırlar bu dünyadan və sevdiklərindən. Ürəklərdə əbədi yaşamaq haqqı qazanaraq, xatirələrimizdə var olaraq nəfəs aldıqca bizimlədirlər.

Telli xanım! Cəfakeş ana, sevimli bacı, fədakar ömür-gün yoldaşı, xala, bibi, nənə, candan yanmağı bacaran qaynana, dost, qohum, həmkar... Bu insanın evində-ocağında olub, onunla tək bircə dəfə ünsiyyətdə olanlar bura daha çox insanlığa xas olan gözəl keyfiyyətləri əlavə edərdilər. Mən isə otuz ilə yaxındır ki, tanıdığım, sadəliyinə, səmimiliyinə və təmkinliyinə vurulduğum Telli xanımın - bacımın, sirdaşımın, hər zaman xeyrimdə-şərimdə yanımda olanın aramızdan getdiyini qəbul edə bilmədiyimdən düşüncələrimi olduğu kimi qələmimə tam söyləyə bilmir və ürək ağrısıyla, onun yoxluğuna inanmadan bu cümlələri vərəqə köçürürəm.

O, kitab aşiqi idi, kitabxana işçisi idi, kitab sevən idi. Onu çox sevən şagirdləri də, həmkarları da bu sevgidən bəhrələndilər. Telli xanım yeddi övlad anası idi. Bütün analar kimi sonsuz sevgiylə bərabər, təhsil də verdi övladlarına. Bu gün onun yoxluğuyla barışa bilməyən övladları öz çalışdıqları sahələrdə də başıuca, ləyaqətlə fəaliyyət göstərirlər və valideynlərinin verdiyi öyüd-nəsihəti ətraflarında olan hər kəsə sərgiləyərək analarına rəhmət oxudurlar. Məni bu ailənin yaxını edən, doğma üzvünə çevirən Esmirama (keçmiş tələbəmizə) - Esmira Çərkəzqızına minnətdarlıq borcum ondan ibarətdir ki, bu ailədən, bu ocağın istisindən çox şeylər görüb-götürüb, əxz edə bildim özümə. Telli xanımla ömür-gün yoldaşı Çərkəz qardaşım mənim üçün həyatda örnək bildiyim cütlüklərdən - ailələrdən oldular. Onların bir-birinə səmimi münasibətləri, övladlarına olan sonsuz diqqətləri və ən əsası zəhmətsevərlikləri həqiqətən nümunəyə çevrildi mənim gözlərimdə. İlahi, bu insanlarda nə qədər sadəlik, təvazökarlıq və insansevərlik ola bilər? Nə qədər qohum-əqrəbaya qucaq açmaq bacarığı olar? Bu yazını böyük məmnunluqla, lakin o qədər də böyük təəssüf hissi və ürək sızıltısıyla yazdığımı tək özüm və kədəri bir ömür içində gəzdirən ürəyim bilir. Keçmiş zamanda yazdığıma görə özüm-özümü tənbeh edirəm və peşmançılığım boğazımda qəhərə dönür.

Telli xanımla son görüşümüz Novruz bayramında oldu və yaxşı ki, oldu bu görüş. Qardaşım Füzulinin faciəli itkisi, acı-ağrısı məni uzun müddət bu kədərdən sıyrılmağa, sevdiyim ailələrlə görüşməyə belə sədd qoydu. Lakin illər sonra həssas ürəyim məni o gün Telli xanımla və Çərkəz qardaşımla görüşməyə götürdü. Bu saf və müqəddəs ocağa getməyə canla, ürəklə qərar verdim. Səliqə-səhmanlı bu evə, bu istiliyə, ən doğma insanları görməyə, onlarla ünsiyyətdə olmağa çox ürəklə və istəyərək getdim o gün, çünki çox darıxmışdım. Bu evin baş uca edən övladları - Xatirə xanım, Səmayəm və Xalidəm bayram şirniyyatı hazırlayırdılar. Məni bütün evdəkilər o gün o qədər sevgiylə və mehribanlıqla qarşıladılar ki, çoxdan bu evə gəlmədiyimi belə unutdum. Yəni unutdurdular. Söhbət elədik. Esmiramızdan başladı söhbətimiz. Onun cəmiyyətimizdə tanınmağı, sevilməsi, Azərbaycan Televiziyasındakı misilsiz fəaliyyəti barədə heç bir şey demək fikrim yoxdur. El gözü tərəzidir çünki. Bir də atalar demiş, görünən dağ bələdçi istəməz. O, nəinki Azərbaycan Televiziyasının səmimi və gülərüzlü diktoru, həm də evlərinin nəşəsi olan bir övladdır. Ata-anasına əsl övlad olan və qürur yaşadan, yetərincə cəfalarına qatlaşan bu qızımızdan, bu gün ailəsi və övladları ilə xaricdə yaşamağından, lakin ürəyi ilə yenə ata-ana yanında olmağından çox danışdıq o gün Telli xanımla. Nə gözəl ki, övlad olaraq ata-anaya bu sevinci yaşada biləsən. Esmira, ananın südü, atanın haqqı min halalın olsun. Hər övlad bu haqqı qazana bilmir nə yazıq ki.

Bu ailənin səadəti və xoşbəxtliyi ondadır ki, buradakı övladların hər biri valideynlərinə əbədi ehtiram, sonsuz sevgi bəsləməklə Tanrının sevmlisidirlər. Qəlbimin dərinliyində öz ata-anama, sevdiklərimə əbədi ehtiram və sonsuz məhəbbət hisslərini yaşadan biri kimi bu övladların nə qədər ata-ana canlı olduqlarını görmüşəm hər zaman. Və bir daha bunları Telli xanımın dilindən duyanda fəxarət yaşayaraq ayrıldım o gün onlardan. Bu evin, bu ocağın qeyrətli qızlarının da, tək oğullarının da valideynlərinə olan hörməti, izzəti bir yazıya sığmaz. Bunu demək, hər yerdə bu ailəni nümunə göstərmək isə bizlərin - bu ailəni yaxından tanıyıb, doğma bilənlərin mənəvi borcudur, məncə. Qırx gündür Telli xanım cismən bizdən ayrılıb, haqq dünyasına qovuşub. Ömür-gün yoldaşı isə bu yoxluqla barışa bilmir, övladları göz yaşlarında boğulur, nəvələri darıxır. Bizlərə, bu ailəni sevənlərə düşən isə hər zaman onların yanında olmaq, təsəlli verə bilməkdən ibarətdir.

Telli xanıma Allahdan rəhmət diləyirəm. Məkanı cənnət, ruhu şad olsun. Həqiqətən cənnət anaların ayaqları altındadır...

Analar ölmür, onlar sadəcə əbədi yuxuya gedirlər. Heç zaman əzizlərini, gözü yolda qalan balalarını tərk etmirlər... Analar onların ürəyinə köçüb yaşayır... Evin hər bucağından uşaqların gözünün içinə baxır ana... Analar yaşayır...

№ 184 (4082) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

16 OKTYABR 2019-cu il

www.baki-xeber.com

# Suyun təmizlənməsinin yeni üsulu...



**Fionn Ferreira adlı gənc irlandiyalı alim bitki yağını ferromaye ilə qarışdıraraq yağlı maye hazırlayıb.**

Belə ki, sözügedən qarışığı plastik mikroskopik kütlə hissəcikləri ilə çirklənmiş suya əlavə etdikdən sonra onu maqnit vasitəsilə təmizləmək mümkün olub. "Trend" bildirir ki, təcrübələr nəticəsində hazırlanan mayenin suyun tərkibində olan plastik tullantıların 88%-ni təmizləyib. O, elmi fəaliyyətinin nəticəsi olaraq 12 mükafat alıb. Qeyd edək ki, gənc dahi 13-18 yaş arası tədqiqatçılar arasında "Google Science Award" elm müsabiqəsində fəal iştirak edib. O, elmi fəaliyyətinin nəticəsi olaraq 12 mükafat alıb.

## TƏBRİK!



Dövlətini, elini, obasını sevən, onun təəssübünü çəkən zəhmətkeş, xeyriyyəçi insan Həsənov Eyvaz İsrafil oğlunun 55 yaşı tamam olur. Bu münasibətlə "Sahibkarlığın İnkişafı" qəzetinin kollektivi onu təbrik edir, uzun ömür, can sağlığı arzulayır.

**Doğum gününüz mübarək!**

## Elan

İsayeva Alidə İsa qızının adına, Bakı şəhəri, Nizami rayonu, Q.Qarayev küçəsi, ev 93, mənzil 2 ünvanının qeydiyyat vəsiqəsi və digər sənədləri itdiyi üçün etibarsız sayılır.

Xosrəvi Baçemir Aynur Moçtaba qızına Bakı Dövlət Universiteti tərəfindən verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

Dadaşova Sədaqət Məsi qızının adına, Bakı şəhəri, Z.Əhmədbəyov küçəsi, ev 12, mənzil 34 ünvanına verilmiş qeydiyyat vəsiqəsi (şəhadətnamə) itdiyi üçün etibarsız sayılır.

Mövsümova Binnət Nüsrət qızına məxsus möhür və ştamp itdiyi üçün etibarsız sayılır (AZE N01660511, Yasamal PRİ).

Skripnikov Aleksandr Mixayloviçin adına, Bakı şəhəri, Nərimanov rayonu, Əliyar Əliyev küçəsi, bina 19 a, mənzil 44 ünvanının MH N0087094 HDQHDƏDR-dən çıxarışı itdiyi üçün etibarsız sayılır (AZE N17100758 ASAN 5).

Şahpələngova Aynur Məhərrəm qızına "Avanqart" MMC tərəfindən verilmiş alqı-satqı müqaviləsi itdiyi üçün etibarsız sayılır (ünvan: Bakı şəhəri, Yasamal rayonu, Ş.Mehdiyev küçəsi 19, 100-cü giriş, 13-cü məhəllə, mənzil N 4 a, ev 15).

## Ürəkdə xəstəliyin olduğunu göstərən 8 əlamət...

**Bədənimizin ən önəmli orqanı olan ürəyimizin sağlamlığını qorumaq üçün diqqətli olmalıyıq. Son illər əsasən günlük həyatımızla bağlı olan bir sıra ürək xəstəlikləri riski artıb.**



Hər hansı problem yarandığı halda ürəyimiz bunu bizə kiçik siqnallarla ötürür. Lakin biz bu siqnallara nə dərəcədə diqqət edir və qarşısını alırıq? "Medicina.az" ürəyinizin düzgün işləmədiyini göstərən bəzi əlamətləri təqdim edir: 1. Qollarda ağrı. Ürək xəstəliyinin ən vacib əlamətlərindən biri qola yayılan ağrıdır. Belə hallarda qol ağrısı kişilərdə əsasən sol tərəfdə , qadınlarda isə hər iki qolda özünü göstərə bilər. Bəzən insanlar bunu sinir sistemi ilə əlaqələndirsə də, mütləq ürək müayinə olunmalıdır. 2. Şiddətli öskürək. Bir çox xəstəlik zamanı özünü göstərən şiddətli öskürək zamanı, xüsusilə çəhrayı maye ifraz olunursa, bu, ürək çatışmazlığının işarəsidir. 3. Ayaqlarda şişlər. Heç bir səbəb olmadan bud, ayaqlar və ayaq biləyində şişlik yaranırsa, bu, ürək xəstəlikləri ilə əlaqəli ola bilər. Əgər qan ürəyə yaxşı vəziyyətdə ötürülmürsə, deməli, qan damarlarındakı maye toxumalara sızır. Bu da şişkinliyə səbəb olur. Belə olduqda həkimə müraciət etmək mütləqdir. Xüsusilə, corab geyindiyiniz zaman ayaq biləyinizdə izi qalırsa diqqətli olmanızda fayda var. 4. Mədə bulantısı və iştahsızlıq. Qaraciyər ətrafındakı həzmə yardım olan maye ürək xəstəlikləri zamanı özünü mədə bulantısı və iştahsızlıqla göstərir. Bu zaman qarın ağrıları müşahidə olunur. Bu narahatlıqları eyni anda keçirirsinizsə dərhal həkimə müraciət edin. 5. Mənfi ruh halı. Tədqiqatlar göstərir ki, narahat və mənfi əhval-ruhiyyəli insanların ürək xəstəliklərinə tutulması göstəricisi yüksəkdir. Ümumiyyətlə, pis əhval bir çox xəstəliklərin yaranmasına səbəb ola bilir. 6.Huşunu itirmək.

Ürək xəstəliklərinin yaranmasında ən çox görünən simptomlardan biri huşunu itirməkdir. Bunun səbəbi ürəyin qanı yaxşı nasoslamaması və damarların tıxanmasıdır. 7. Dəridə göyərmələr. Bu, əsasən qan axınının azalması və ürəyə kifayət qədər yaxşı ötürülməyən qan nəticəsində baş verir. Hətta, şok effekti ilə ortaya çıxan bu problem, bədənimizin bəzi yerlərində özünü göstərə bilər. 8. Dəri xəstəlikləri. Tədqiqatlar göstərir ki, dəri xəstəlikləri, xüsusilə də ekzema xəstələrinin 48% -də yüksək təzyiq, 29% -də isə yüksək xolesterol var. Bu tip insanlarda başqalarına nisbətən ürək xəstəliklərinin inkişafına 59% daha çox rast gəlinir.





**Qoç** - Orijinal və qeyri-standart qərarlar qəbul edin. Yaxın ətrafınızdakı insanlar addımlarınızı anlamayacaqlar. Narahat olmayın, yolunuza davam edin. Ailə üzvləri ilə münasibətlər rəvan deyil.



**Buğa** - Niyyətlərinizi reallaşdırmağa tələsməyin. Az sonra planları gerçəkləşdirmək üçün uğurlu şərait yaranacaq. Peşəkar mövqelərinizi möhkəmləndirmək imkanı var. Amma vicdanınızın səsinə qulaq asın.



**Əkizlər** - Uğurlu gündür. Başladığınız işlər alınacaq. Yaxın ətrafınızdakı insanların öhdəsindən gələ bilmədikləri problemi həll edəcəksiniz. Fəaliyyət sahəsini genişləndirə bilərsiniz.



**Xərçəng** - Səfər, səyahət, ezamiyyət üçün uğurlu gündür. Yaşam arealının dəyişməsi əhvalınızı yaxşılaşdırmaqla yanaşı, yaradıcıldıq potensialınızı da artırır. Gözəl ideyalarınız peyda olacaq.



**Şir** - Yeni işə və ya layihəyə başlamaq üçün əlverişli gündür. Çətinlikləri dəf etmək üçün orijinal yollar və üsullar arayın. İşdə kollektivin üzvləri ilə münasibətlər nizamlanır.



**Qız** - Nahamar, gərgin gündür. Çətin qərarlar qəbul etməli, yaxın ətrafınızdakı insanların təqdir etməyəcəyi addımlar atmalı olacaqsınız. İşdə konkret layihə və ya plan baş tutmayacaq. Rəhbərliklə söz güləşdirməyin, həmkarlarla mübahisə etməyin.



**Tərəzi** - Orijinal hellər, qeyri-standart addımlar günüdür. Orijinallıq və gözlənilməzlik sizə uğur qazandıra bilər. Yeni tanışlıqlar faydalıdır. Onlar yaxın gələcəkdə həyatınızda köklü dəyişikliklərin rəhni ola bilər.



**Əqrəb** - Nüfuzlu şəxslə ünsiyyət və yeni maliyyə imkanlarının aranması üçün yaxşı gündür. Müttəfiq və şərik arayın. İşdə mövqelərinizi möhkəmləndirin. Daha çox maaş ala biləcəyiniz, nüfuzlu iş yeri barədə də düşünə bilərsiniz.



**Oxatan** - Qəfil görüş baş tuta bilər. Bu təmas xoş olmasa da, faydalıdır. Gün çoxsaylı tanışlıqlar vəd edir. Sizi paltara görə qarşılayacaqlar və buna görə də zahiri görünüşünüzə fikir verin. Əşyalarınızı nəzarətdə saxlayın.



**Oğlaq** - Ehtiyatlı və sərvaxt olun. Ciddi, çətin sınaqlar dönəmidir. Bütün işlərdə dəqiq və səliqəli olun. Ən kiçik səhvin belə, böyük fəsadları ola bilər. İşdə rəhbərlk sizə qarşı çox tələbkardır. Kollektivdə münasibətlər gərginləşir.



**Dolça** - Risk etməyin. Düşünülməmiş addımlar və impulsiv hərəkətlər üçün əlverişli gün deyil. Sınanmış, etibarlı üsullar seçin, rahat yolla irəliləyin. İşdə xoşagəlməz sürprizlər, rəhbərliklə münaqişə ola bilər.



**Balıqlar** - İşdə əla nəticələrə nail olmaq imkanı var. Rəqibləri üstələyə, bədxahları tərksilah edə bilərsiniz. Risk istisna deyil. İntiusiya sizə nə zaman aktiv fəaliyyətdə olmağı, nə zaman da kölgəyə çəkilərək gözləməyi deyəcək.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Qadının mədəsindən çıxan həkimləri şoka saldı

**Qarın ağrısı ilə həkimə müraciət edən qadının mədəsindən çıxanlar hər kəsi təəccübləndirib. "Medicina.az" bildirir ki, İstanbulda 45 yaşlı qadın qarın və mədə nahiyəsindəki şiddətli ağrılar səbəbindən həkimə müraciət edib. Müalicə edildikdən sonra evə buraxılan qadının ağrıları yenidən başlayıb.**

Bu dəfə təcili tibbi yardımla xəstəxanaya çatdırılan qadının müayinəsi zamanı onun qarın boşluğunun yad cisim aşkarlanıb. Endoskopiya üsulu ilə dərhal əməliyyata alınan Nilufer adlı qadının mədəsindən 5 sm uzunluğunda mismar çıxarılıb. Əməliyyatdan sonra qadın bildirib ki, əvvəlcə qarnında ağrılar başlayıb. Daha sonra, bədəninin müxtəlif yerləri şişməyə başlayıb, qarın ağrıları şiddətlənib. Müayinə zamanı qarnında mismar olduğu deyiləndə qadın təəccüblənib. O, mismarı necə udduğunu xatırlamır. Qadın mədəsindən mismar çıxarıldıqdan sonra normal həyatına davam etməyə başlayıb.

***Hazırladı: Ramil QULİYEV***

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

e-mail: azer22@mail.ru

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.